# BİRİNCİ SALNAMƏLƏR

## KİTABI

## GİRİŞ

*«1 və 2 Salnamələr»* adlanan iki kitab *«Şamuel»* və *«Padşahlar»* Kitablarındakı hadisələri yenidən başqa nöqteyi-nəzərdən işıqlandırır. *«1 Salnamələr»* Kitabı İsrail tarixinin yazılmasının iki əsas məqsədini göstərir:

İsrail və Yəhuda padşahlığının başına gəlmiş bəlalara baxmayaraq, Allah İsrail xalqına verdiyi vədlərinə sadiq olub Yəhudada yaşayanlar vasitəsilə Öz xalqı üçün niyyətini həyata keçirirdi. Müəllif bunu Davud və Süleymanın nailiyyətlərində, Yehoşafat, Xizqiya və Yoşiyanın islahatlarında, həmçinin xalqın Allaha sadiqliyində görürdü.

Yerusəlim məbədində xalqın Allaha səcdə etməsi, xüsusilə kahinlərlə Levililərin ibadət xidməti təsvir olunur. Süleyman məbədi tikdi, amma Davud məbədin təməlini və mərasimlərin əsasını qoydu.

***Kitabın məzmunu***

1:1-9:44 Nəsil şəcərələri və siyahılar
10:1-14 Şaulun ölümü
11:1-29:30 Davudun padşahlığı
    11:1-22:1 Bəlalar və nailiyyətlər
    22:2-29:30 Məbədi tikmək üçün hazırlıq

***Adəm və onun nəsilləri***

*(Yar. 5:1-32)*

1 1Adəm, Şet, Enoş, 2Qenan, Maha-
lalel, Yered, 3Xanok, Metuşelah,
Lemek, 4Nuh, Sam, Ham və Yafəs.

***Nuhun nəsilləri***

*(Yar. 10:1-32; 11:10-26)*

5Yafəsin oğulları: Qomer, Maqoq,
Maday, Yavan, Tuval, Meşek və
Tiras. 6Qomerin oğulları: Aşkenaz,
Rifat və Toqarma. 7Yavanın oğulları:
Elişa, Tarşiş, Kittim və Rodanim.

8Hamın oğulları: Kuş, Misrayim,
Put və Kənan. 9Kuşun oğulları: Seva,
Xavila, Savta, Raama və Savteka.
Raamanın oğulları: Səba və Dedan.
10Kuşun Nəmrud adlı bir oğlu da
oldu. O, yer üzündə ilk qüdrətli adam
oldu. 11Misrayimin nəsilləri bunlardır:
Ludlular, Anamlılar, Lehavlılar,
Naftuhlular, 12Patroslular, Filiştlilərin
əcdadı olan Kasluhlular, həmçinin
Kaftorlular. 13Kənanın nəsilləri bun-
lardır: ilk oğlu Sidon, Xet, 14həmçinin
Yevuslular, Emorlular, Qirqaşlılar,
15Xivlilər, Arqlılar, Sinlilər, 16Ervad-
lılar, Semarlılar və Xamatlılar.

17Samın oğulları: Elam, Aşşur,
Arpakşad, Lud, Aram, Us, Xul, Geter
və Meşek. 18Arpakşaddan Şelah
törədi və Şelahdan Ever törədi.
19Everin iki oğlu oldu: birinin adı

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 474



Peleq[a] idi, çünki onun dövründə yer
üzü bölündü. Qardaşının adı Yoqtan
idi. 20Yoqtandan Almodad, Şelef, Xa-
sarmavet, Yerah, 21Hadoram, Uzal,
Diqla, 22Eval, Avimael, Səba, 23Ofir,
Xavila və Yovav törədi. Bunların
hamısı Yoqtanın oğulları idi.
24Sam, Arpakşad, Şelah, 25Ever,
Peleq, Reu, 26Seruq, Naxor, Terah,
27İbram, yəni İbrahim.

### *İbrahimin nəsilləri*

*(Yar. 25:12-16; 36:1-19)*

28İbrahimin oğulları: İshaq və
İsmail. 29Onların oğulları bunlardır:
İsmailin ilk oğlu Nevayot, sonra
Qedar, Adbeel, Mivsam, 30Mişma,
Duma, Massa, Xadad, Tema, 31Yetur,
Nafiş və Qedma. Bunlar İsmailin
oğullarıdır.
32İbrahimin cariyəsi Qeturanın
doğduğu oğullar bunlardır: Zimran,
Yoqşan, Medan, Midyan, İşbaq və
Şuah. Yoqşanın oğulları: Səba və De-
dan. 33Midyanın oğulları: Efa, Efer,
Xanok, Avida və Eldaa. Bunların
hamısı Qeturanın övladlarıdır.
34İbrahimdən İshaq törədi. İshaqın
oğulları: Esav və İsrail. 35Esavın
oğulları: Elifaz, Reuel, Yeuş, Yalam
və Qorah. 36Elifazın oğulları: Teman,
Omar, Sefi, Qatam, Qenaz, Timna və
Amaleq. 37Reuelin oğulları: Naxat,
Zerah, Şamma və Mizza.

### *Seirin nəsilləri*

*(Yar. 36:20-30)*

38Seirin oğulları: Lotan, Şoval,
Siveon, Ana, Dişon, Eser və Dişan.
39Lotanın oğulları: Xori və Homam,
Lotanın bacısı Timna. 40Şovalın
oğulları: Alvan, Manaxat, Eval, Şefo
və Onam. Siveonun oğulları: Ayya və
Ana. 41Ananın oğlu Dişon. Dişonun
oğulları: Xamran, Eşban, İtran və
Keran. 42Eserin oğulları: Bilhan,
Zaavan və Yaaqan. Dişanın oğulları:
Us və Aran.

### *Edomun padşahları və başçıları*

*(Yar. 36:31-43)*

43İsraillilərə bir kəs padşahlıq et-
məzdən əvvəl Edom ölkəsində padşah-
lıq edən adamlar bunlardır: Beor oğlu
Bela. Onun şəhəri Dinhava idi. 44Bela
öldü və onun yerinə Bosradan olan
Zerah oğlu Yovav padşah oldu.
45Yovav öldü və onun yerinə Teman-
lıların torpağından olan Xuşam pad-
şah oldu. 46Xuşam öldü və onun
yerinə Moav çölündə Midyanlıları
qıran Bedad oğlu Hadad padşah oldu.
Onun şəhəri Avit idi. 47Hadad öldü və
onun yerinə Masreqadan olan Samla
padşah oldu. 48Samla öldü və onun
yerinə Rexovot-Hannahardan olan
Şaul padşah oldu. 49Şaul öldü və onun
yerinə Akbor oğlu Baal-Xanan pad-
şah oldu. 50Baal-Xanan öldü və onun
yerinə Hadad padşah oldu. Onun
şəhəri Pau idi. Onun arvadının adı
Me-Zahav qızı Matred qızı Mehetavel
idi.
51Hadad öldü və bunlar Edomun
başçıları oldu: başçı Timna, başçı
Alva, başçı Yetet, 52başçı Oholivama,
başçı Ela, başçı Pinon, 53başçı Qenaz,
başçı Teman, başçı Mivsar, 54başçı
Maqdiel, başçı İram. Edomun baş-
çıları bunlardır.

### *İsrailin oğulları*

2 1İsrailin oğulları bunlardır: Ru-
ven, Şimeon, Levi, Yəhuda, İssa-

a **1:19** *Peleq* – ibrani dilində *bölünmə.*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 475



kar, Zevulun, 2Dan, Yusif, Binyamin, Naftali, Qad və Aşer.

### *Yəhudanın nəsilləri*

3Yəhudanın oğulları: Er, Onan və Şela. Onun bu üç oğlu Kənanlı Bat-Şuadan doğuldu. Yəhudanın ilk oğlu Er Rəbbin gözündə pis adam idi və Rəbb onu öldürdü. 4Yəhudanın gəlini Tamar ona Peresi və Zerahı doğdu. Yəhudanın cəmisi beş oğlu var idi.

5Peresin oğulları: Xesron və Xamul. 6Zerahın oğulları: Zimri, Etan, Heman, Kalkol və Dara. Bunlar cəmisi beş nəfər idi. 7Karminin oğlu həsr olunmuş şeydə xainlik edib İsraili bəlaya salan Akan idi. 8Etanın oğlu Azarya idi.

### *Davudun əcdadları*

9Xesronun oğulları: Yeraxmeel, Ram və Kalev. 10Ramdan Amminadav törədi və Amminadavdan Yəhudalıların rəhbəri Naxşon törədi. 11Naxşondan Salmon törədi və Salmondan Boaz törədi. 12Boazdan Oved törədi və Oveddən Yessey törədi. 13Yesseyin oğulları bunlar idi: ilk oğlu Eliav, ikincisi Avinadav, üçüncüsü Şimea, 14dördüncüsü Netanel, beşincisi Radday, 15altıncısı Osem, yeddincisi Davud. 16Onların bacıları Seruya və Aviqail idi. Seruyanın üç oğlu var idi: Avişay, Yoav və Asahel. 17Aviqail Amasanı doğdu. Amasanın atası İsmailli Yeter idi.

### *Xesronun başqa nəsilləri*

18Xesron oğlu Kalevin arvadı Azuva və Yeriot ona övladlar doğdu. Kalevin Azuvadan olan oğulları bunlardır: Yeşer, Şovav və Ardon. 19Azuva öldü. Kalev Efratı arvad aldı və o da Kalevə Xuru doğdu. 20Xurdan Uri törədi. Uridən Besalel törədi.

21Bundan sonra Xesron altmış yaşında ikən Gileadın atası olan Makirin qızını aldı və onunla yaxınlıq etdi; o, Xesrona Sequvu doğdu. 22Sequv Yairin atası idi. Yairin Gilead torpağında iyirmi üç şəhəri var idi. 23Amma Geşurlular və Aramlılar onlardan Xavvot-Yairi aldılar, bundan başqa, Qenatı və onun qəsəbələrini də – cəmisi altmış şəhəri aldılar. Bunların hamısı Gileadın atası olan Makirin nəsilləri idi. 24Xesron Kalev-Efratada öldükdən sonra Xesronun arvadı Aviya ona Teqoanın atası Aşxuru doğdu.

25Xesronun ilk oğlu Yeraxmeelin oğulları: ilk oğlu Ram, Buna, Oren, Osem və Axiya. 26Yeraxmeelin başqa bir arvadı var idi, onun adı Atara idi. Onamın anası o idi. 27Yeraxmeelin ilk oğlu Ramın oğulları: Maas, Yamin və Eqer. 28Onamın oğulları: Şammay və Yada. Şammayın oğulları: Nadav və Avişur. 29Avişurun arvadının adı Avihayil idi. O, Avişura Axbanı və Molidi doğdu. 30Nadavın oğulları: Seled və Appayim. Seled oğulsuz öldü. 31Appayimin oğlu İşi idi. İşinin oğlu Şeşan idi. Şeşanın oğlu Axlay idi. 32Şammayın qardaşı Yadanın oğulları: Yeter və Yonatan. Yeter oğulsuz öldü. 33Yonatanın oğulları: Pelet və Zaza. Bunlar Yeraxmeelin nəsilləri idi.

34Şeşanın oğulları yox idi, yalnız qızları var idi. Şeşanın bir Misirli qulu var idi, onun adı Yarxa idi. 35Şeşan qulu Yarxaya qızını arvad olmaq üçün verdi. Arvadı ona Attayı doğdu. 36Attaydan Natan törədi. Natandan Zavad törədi. 37Zavaddan Eflal törədi.

**2:7** *Yeşua 7:1*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 476



Eflaldan Oved törədi. 38Oveddən
Yehu törədi. Yehudan Azarya törədi.
39Azaryadan Xeles törədi. Xelesdən
Eleasa törədi. 40Eleasadan Sismay tö-
rədi. Sismaydan Şallum törədi. 41Şal-
lumdan Yeqamya törədi. Yeqamya-
dan Elişama törədi.

42Yeraxmeelin qardaşı Kalevin
oğulları: Zifin atası ilk oğlu Meşa,
Xevronun atası Mareşa. 43Xevronun
oğulları: Qorah, Tappuah, Reqem və
Şema. 44Şemadan Yorqoamın atası
olan Raxam törədi. Reqemdən Şam-
may törədi. 45Şammayın oğlu Maon
idi. Maon Bet-Suru tikdi. 46Kalevin
cariyəsi Efa Xaranı, Mosanı və Qazezi
doğdu. Xaran Qazezin atası idi.
47Yahdayın oğulları: Regem, Yotam,
Geşan, Pelet, Efa və Şaaf. 48Kalevin
cariyəsi Maaka Şeveri və Tirxananı
doğdu. 49O həm də Madmannanın
atası Şaafı, Makbenanın və Giveanın
atası Şevanı doğdu. Kalevin qızı Aksa
idi. 50Bunlar Kalevin nəsilləri idi.

Efratanın ilk oğlu Xurun oğulları
bunlardır: Qiryat-Yearimin atası
Şoval, 51Bet-Lexemin atası Salma,
Bet-Qaderin atası Xaref. 52Qiryat-
Yearimin atası Şovalın nəsilləri
bunlardır: Haroelilər, Manaxatlıların
yarısı. 53Qiryat-Yearimin sakinləri:
Yeterlilər, Putlular, Şumalılar, Mişra-
lılar. Bunların arasından Soralılar və
Eştaollular çıxdılar. 54Salmanın nə-
silləri: Bet-Lexemlilər, Netofalılar,
Atrot-Bet-Yoavlılar, Manaxatlıların
yarısı və Soralılar. 55Yabesdə yaşayan
mirzələrin nəsilləri: Tirealılar, Şime-
alılar, Sukalılar. Bunlar Bet-Rekavın
atası Xammatın nəslindən olan Qen-
lilərdir.

### *Davudun oğulları*

3 1Davudun Xevronda doğulan
oğulları bunlardır: ilk oğlu İzreelli
Axinoamdan doğulan Amnon, ikincisi
Karmelli Aviqaildən doğulan Daniel,
2üçüncüsü Geşur padşahı Talmayın
qızı Maakadan doğulan Avşalom,
dördüncüsü Haqqitdən doğulan Ado-
niya, 3beşincisi Avitaldan doğulan
Şefatya, altıncısı arvadı Eqladan do-
ğulan İtream. 4Davudun bu altı oğlu
Xevronda doğuldu. Davud orada
yeddi il altı ay padşahlıq etdi, Yeru-
səlimdə isə otuz üç il padşahlıq etdi.
5Davudun Yerusəlimdə doğulan oğul-
ları bunlardır: Ammielin qızı Bat-
Şevadan doğulan dörd oğlu: Şimea,
Şovav, Natan və Süleyman, 6daha
doqquz oğlu: İvxar, Elişua, Elpelet,
7Noqah, Nefeq, Yafia, 8Elişama,
Elyada və Elifelet. 9Cariyələrdən do-
ğulan oğullarından başqa Davudun
bütün oğulları bunlardır. Tamar da
onların bacısıdır.

### *Yəhuda padşahları*

10Süleymanın oğlu Rexavam, onun
oğlu Aviya, onun oğlu Asa, onun oğlu
Yehoşafat, 11onun oğlu Yehoram,
onun oğlu Axazya, onun oğlu Yoaş,
12onun oğlu Amasya, onun oğlu
Azarya, onun oğlu Yotam, 13onun
oğlu Axaz, onun oğlu Xizqiya, onun
oğlu Menaşşe, 14onun oğlu Amon,
onun oğlu Yoşiya. 15Yoşiyanın oğul-
ları: ilk oğlu Yoxanan, ikincisi Ye-
hoyaqim, üçüncüsü Sidqiya, dördün-
cüsü Şallum. 16Yehoyaqimin oğulları:
onun oğlu Yekonya,[a] onun oğlu Sid-
qiya.

---

a **3:16** *Yekonya* – başqa adı Yehoyakin.

**3:4** *2Şam. 5:4-5; 1Pad. 2:11; 1Saln. 29:27* **3:5** *2Şam. 11:3*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 477



### *Yekonyanın nəsilləri*

17Əsir aparılmış Yekonyanın oğul-
ları: Şealtiel, 18Malkiram, Pedaya,
Şenassar, Yeqamya, Hoşama və Ne-
davya. 19Pedayanın oğulları: Zerub-
babil və Şimey. Zerubbabilin oğulları:
Meşullam və Xananya, onların bacısı
Şelomit, 20daha beş oğlu: Xaşuva,
Ohel, Berekya, Xasadya və Yuşav-
Xesed. 21Xananyanın nəsilləri: Pelat-
ya, Yeşaya, Refayanın oğulları, Ar-
nanın oğulları, Avdiyanın oğulları,
Şekanyanın oğulları. 22Şekanyanın
oğlu Şemaya idi. Şemayanın altı oğlu:
Xattuş, İqal, Bariah, Nearya və Şafat.
23Nearyanın üç oğlu: Elyoenay, Xiz-
qiya və Azriqam. 24Elyoenayın yeddi
oğlu: Hodavya, Elyaşiv, Pelaya, Aq-
quv, Yoxanan, Delaya və Anani.

### *Yəhudanın nəsilləri*

4 1Yəhudanın oğulları: Peres,
Xesron, Karmi, Xur və Şoval.
2Şovalın oğlu Reayadan Yaxat törədi;
Yaxatdan Axumay və Lahad törədi.
Bunlar Soralıların nəsilləri idi. 3Eta-
mın oğulları bunlardır: İzreel, İşma və
İdbaş. Onların bacısının adı Haslel-
ponidir. 4Penueldən Qedor, Ezerdən
isə Xuşa törədi. Bunlar Bet-Lexemin
atası Efratanın ilk oğlu Xurun
övladlarıdır. 5Teqoanın atası Aşxurun
iki arvadı var idi: Xela və Naara.
6Naara ona bunları doğdu: Axuzzam,
Xefer, Temeni və Axaştari. Bunlar
Naaranın oğulları idi. 7Xelanın oğul-
ları: Seret, İsxar, Etnan və Qos. 8Qos-
dan Anuv, Soveva və Harum oğlu
Axarxelin nəsilləri törədi.
9Yabes qardaşlarından daha hör-
mətli idi. Anası «onu ağrı ilə doğdum»
deyib adını Yabes qoymuşdu. 10Yabes
İsrailin Allahını çağırıb dedi: «Kaş
Sən mənə xeyir-dua verəydin! Tor-
paqlarımı genişləndir, mənə kömək ol
və əzab çəkməyim deyə məni şərdən
qoru». Allah da istədiyi şeyi ona verdi.
11Şuxanın qardaşı Keluvdan Mexir
törədi. Mexirdən Eşton törədi.
12Eştondan Bet-Rafa, Paseahın və İr-
Naxaşın atası Texinna törədi. Bunlar
Rekalılardır. 13Qenazın oğulları: Otni-
el və Seraya. Otnielin oğulları Xatat və
14Ofranın atası olan Meonotay. Se-
rayadan Ge-Xaraşimin[a] atası Yoav
törədi. Bu şəhərin sakinləri ustalar
olduğuna görə belə adlanırdı. 15Ye-
funnenin oğlu Kalevin oğulları: İru,
Ela və Naam. Elanın oğlu Qenaz idi.
16Yehallelelin oğulları: Zif, Zifa, Tirya
və Asarel. 17Ezranın oğulları: Yeter,
Mered, Efer, Yalon. Meredin arvad
aldığı firon qızı Bityanın oğulları:
Məryəm, Şammay və Eştemoanın
atası İşbah. 18Yəhudalı arvadı isə
bunları doğdu: Qedorun atası Yered,
Sokonun atası Xever və Zanoahın
atası Yequtiel. 19Naxamın bacısı Ho-
diyanın arvadı idi. Onun oğullarından
Qarmili Qeila və Maakalı Eştemoa
törədi. 20Şimeonun oğulları: Amnon,
Rinna, Ben-Xanan və Tilon. İşinin
oğulları: Zoxet və Ben-Zoxet. 21Yəhu-
danın oğlu Şelanın nəsilləri: Lexanın
atası Er, Mareşanın atası Laada və
Bet-Aşbeada olan incə kətan toxuyan-
ların nəsilləri, 22Yoqim və Kozeva-
lılar, Yoaş və Saraf. Bunlar Moavda
arvad aldılar və Lexemə qayıtdılar.
Bu, qədim hadisələrdir. 23Onlar du-
lusçu idi, Netaimdə və Gederada
yaşayırdılar. Padşah üçün iş görərək
orada qalırdılar.

---

a **4:14** *Ge-Xaraşim* – ibrani dilində *ustalar vadisi.*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 478



### *Şimeonun nəsilləri*

[24]Şimeonun oğulları: Nemuel, Yamin, Yariv, Zerah və Şaul. [25]Şaulun oğlu Şallum, onun oğlu Mivsam, onun oğlu Mişma. [26]Mişmanın oğulları: onun oğlu Xammuel, onun oğlu Zakkur, onun oğlu Şimey. [27]Şimeyin on altı oğlu və altı qızı var idi, lakin qohumlarının oğulları çox deyildi və onların bütün nəsli Yəhuda oğulları qədər çoxalmadı.

[28]Onlar bu yerlərdə yaşayırdı: Beer-Şeva, Molada, Xasar-Şual, [29]Bilha, Esem, Tolad, [30]Betuel, Xorma, Ziqlaq, [31]Bet-Markavot, Xasar-Susim, Bet-Biri və Şaarayim. Davudun padşahlıq etdiyi dövrə qədər onların şəhərləri bunlardır. [32]Onların qəsəbələri bunlardır: Etam, Ayin, Rimmon, Token və Aşan – cəmi beş şəhər. [33]Bu şəhərlərin ətrafında Baala qədər olan bütün kəndlər də onların yaşadıqları yerlərdir. Onların nəsil şəcərəsi belədir: [34]Meşovav, Yamlek, Amasya oğlu Yoşa, [35]Yoel, Asiel oğlu Seraya oğlu Yoşivya oğlu Yehu, [36]Elyoenay, Yaaqova, Yeşoxaya, Asaya, Adiel, Yesimiel, Benaya, [37]Şemaya oğlu Şimri oğlu Yedaya oğlu Allon oğlu Şifi oğlu Ziza. [38]Bu adları çəkilənlər nəsil rəhbərləri idi və onların nəsilləri artıb çoxalmışdı. [39]Onlar sürüləri üçün otlaq axtarmaqdan ötrü Qedorun yaxınlığına, dərənin şərq tərəfinə qədər getdilər. [40]Bol və yaxşı otlaq tapdılar, ölkə də geniş, sakit və dinc idi. Onlardan əvvəl orada Hamlılar yaşayırdı. [41]Bu adları yazılanlar Yəhuda padşahı Xizqiyanın dövründə gəlib öz çadırlarında olan Hamlıları və orada olan Maonluları qırdılar. Onları tamamilə məhv edib yerlərində yaşadılar, çünki orada sürüləri üçün otlaq var idi. Bu günə qədər də belədir. [42]Həmin Şimeonlulardan beş yüz nəfər Seir dağına getdi. İşinin oğulları Pelatya, Naarya, Refaya və Uzziel onlara başçılıq edirdi. [43]Onlar sağ qalan Amaleqli qaçanları qırdılar. Onlar bu günə qədər də orada yaşayır.

### *Ruvenin nəsilləri*

5 [1]İsrailin ilk oğlu Ruven idi, amma atasının yatağını murdarladığı üçün onun ilk oğulluq haqqı İsrailin oğlu Yusifin nəslinə verildi və Ruvenin nəsli şəcərədə ilk oğul kimi sayılmadı. [2]Ancaq Yəhuda qardaşları arasında daha güclü oldu və hökmdar onun nəslindən çıxdı. İlk oğulluq haqqı isə Yusifin idi. [3]İsrailin ilk oğlu Ruvenin oğulları: Xanok, Pallu, Xesron və Karmi. [4]Yoelin nəsli: onun oğlu Şemaya, onun oğlu Qoq, onun oğlu Şimey, [5]onun oğlu Mikeya, onun oğlu Reaya, onun oğlu Baal, [6]onun oğlu Beera. Onu Aşşur padşahı Tiqlat-Pileser sürgünə aparmışdı. Beera Ruvenlilərin başçısı idi. [7]Nəsil şəcərələrinə görə onların qohumları bunlar idi: başçı Yeiel, Zəkəriyyə, [8]Yoel oğlu Şema oğlu Azaz oğlu Bela. O, Aroerdə yaşayırdı, torpağı Nevoya və Baal-Meona qədər uzanırdı. [9]Şərqə tərəf Fərat çayının bu tayındakı çölün başlanğıc yerinə qədər torpaqlar onun idi, çünki Gilead torpağında çoxlu heyvanları var idi. [10]Şaulun dövründə bu adamlar Həcərlilərlə müharibə edib onları məğlub etdi və Gileadın şərqindəki bütün torpaqlarda Həcərlilərin çadırlarında yaşadı.

**5:1** *Yar. 35:22; 49:3-4* **5:2** *Yar. 49:8-10* **5:4-6** *2Pad. 15:29*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 479



***Qadın nəsilləri***

11Qadlılar Salkaya qədər uzanan
Başan torpağında Ruvenlilərin qar-
şısında yaşadı. 12Başanda başçı Yoel,
köməkçisi Şafam, sonra Yanay və
Şafat idi. 13Öz nəsillərindən olan qo-
humları bunlardır: Mikael, Meşullam,
Şeva, Yoray, Yakan, Ziya və Ever –
cəmi yeddi nəfər. 14Bunlar Buz oğlu
Yaxdo oğlu Yeşişay oğlu Mikael oğlu
Gilead oğlu Yaroah oğlu Xuri oğlu
Avixayilin oğulları idi. 15Quni oğlu
Avdiel oğlu Axi onların nəsil başçısı
idi. 16Onlar Gileadda, Başanda və
onun qəsəbələrində, Şaronun sərhəd-
lərinə qədər uzanan bütün otlaq tor-
paqlarında yaşadı. 17Yəhuda padşahı
Yotamın və İsrail padşahı Yarovamın
dövründə onların hamısı nəsil şəcə-
rələrində qeyd olundu.

***İsraillilərin Həcərlilərlə müharibəsi***

18Ruvenlilərdən, Qadlılardan, Me-
naşşe qəbiləsinin yarısından olan,
qalxan və qılınc daşıyan, ox atan,
döyüş üçün təlim görmüş və döyüşməyi
bacaran igid adamlar qırx dörd min
yeddi yüz altmış nəfər idi. 19Onlar
Həcərlilərdən olan Yeturun, Nafişin
və Nadavın nəsilləri ilə müharibə etdi.
20İsraillilər düşmənləri ilə döyüşdə
kömək aldıqları üçün Həcərliləri və
onlarla olanların hamısını məğlub
etdilər, çünki İsraillilər döyüş zamanı
Allahı çağırdılar və Ona güvəndikləri
üçün Allah onları eşitdi. 21Onlar
düşmənlərinin heyvanlarını – əlli min
dəvəsini, iki yüz əlli min qoyun-
keçisini, iki min eşşəyini ələ keçirdi və
yüz min adamını götürüb apardı.
22Həlak olanlar çox oldu, çünki bu
döyüş Allahdan idi. Onlar sürgün
olunan zamana qədər Həcərlilərin
yerlərində yaşadı.

***İordan çayının şərqində yaşayan Menaşşelilərin nəsilləri***

23Menaşşe qəbiləsinin yarısının
nəsilləri də həmin torpaqda yaşadı.
Onlar çoxalıb Başandan Baal-Xer-
mona, Senirə və Xermon dağına
qədər uzanan torpağa yayıldılar.
24Onların nəsil başçıları bunlardır:
Efer, İşi, Eliel, Azriel, Yeremya, Ho-
davya və Yaxdiel. Bunlar igid döyüş-
çülər, adlı-sanlı adamlar və nəsil baş-
çıları idi. 25Amma onlar atalarının
Allahına qarşı xainlik etdilər və
onların önündə Allahın məhv etdiyi
ölkə xalqlarının allahlarına sitayiş
edib xəyanət etdilər. 26Onda İsrailin
Allahı Aşşur padşahı Pulda,[1] yəni
Tiqlat-Pileserdə[2] niyyət oyandırdı, o
da Ruvenliləri, Qadlıları və Menaşşe
qəbiləsinin yarısını əsir aparıb Xa-
laha,[3] Xavora, Haraya və Qozan ça-
yının sahilində yerləşdirdi. Onlar bu
günə qədər də oradadır.

***Levinin nəsilləri***

6 1Levinin oğulları: Gerşon, Qohat
və Merari. 2Qohatın oğulları:
Amram, İshar, Xevron və Uzziel.
3Amramın övladları: Harun, Musa və
Məryəm. Harunun oğulları: Nadav,
Avihu, Eleazar və İtamar.

4Eleazardan Pinxas törədi. Pinxas-
dan Avişua törədi. 5Avişuadan Buqqi
törədi. Buqqidən Uzzi törədi. 6Uzzi-
dən Zerahya törədi. Zerahyadan Me-
rayot törədi. 7Merayotdan Amarya
törədi. Amaryadan Axituv törədi.
8Axituvdan Sadoq törədi. Sadoqdan

**5:26** – [1]*2Pad. 15:19;* [2]*2Pad. 15:29;* [3]*2Pad. 17:6*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 480



Aximaas törədi. 9Aximaasdan Azarya
törədi. Azaryadan Yoxanan törədi.
10Yoxanandan Azarya törədi. Yeru-
səlimdə Süleymanın tikdiyi məbəddə
Azarya kahin idi. 11Azaryadan Amar-
ya törədi. Amaryadan Axituv törədi.
12Axituvdan Sadoq törədi. Sadoqdan
Şallum törədi. 13Şallumdan Xilqiya
törədi. Xilqiyadan Azarya törədi.
14Azaryadan Seraya törədi. Seraya-
dan Yehosadaq törədi. 15Navuxo-
donosorun vasitəsilə Rəbb Yəhu-
dalıları və Yerusəlimliləri sürgün et-
diyi zaman Yehosadaq da sürgün
olundu.

16Levinin oğulları: Gerşon, Qohat
və Merari. 17Gerşonun oğullarının
adları belədir: Livni və Şimey.
18Qohatın oğulları: Amram, İshar,
Xevron və Uzziel. 19Merarinin oğul-
ları: Maxli və Muşi. Nəsillərinə görə
Levililərin övladları bunlardır. 20Ger-
şonun nəsli: onun oğlu Livni, onun
oğlu Yaxat, onun oğlu Zimma, 21onun
oğlu Yoah, onun oğlu İddo, onun
oğlu Zerah, onun oğlu Yeatray.
22Qohatın nəsli: onun oğlu Ammina-
dav, onun oğlu Qorah, onun oğlu
Assir, 23onun oğlu Elqana, onun oğlu
Evyasaf, onun oğlu Assir, 24onun oğlu
Taxat, onun oğlu Uriel, onun oğlu
Uzziya və onun oğlu Şaul. 25Elqana-
nın oğulları: Amasay, Aximot və
Elqana. 26Elqananın nəsli: onun oğlu
Sofay, onun oğlu Naxat, 27onun oğlu
Eliav, onun oğlu Yeroxam, onun oğlu
Elqana. 28Şamuelin oğulları: ilk oğlu
Yoel və ikincisi Aviya. 29Merarinin
nəsli: onun oğlu Maxli, onun oğlu
Livni, onun oğlu Şimey, onun oğlu
Uzza, 30onun oğlu Şima, onun oğlu
Haqqiya, onun oğlu Asaya.

***Rəbbin evində olan musiqiçilər və kahinlər***

31Əhd sandığı rahatlıq yerinə
qoyulduqdan sonra Rəbbin evində
musiqi xidməti üzərində Davudun
qoyduğu adamlar bunlardır. 32Süley-
man Yerusəlimdə Rəbbin məbədini
tikənə qədər onlar müqəddəs məskən
olan Hüzur çadırının önündə ilahi
oxumaqla xidmət edirdilər və növ-
bələrinə görə öz xidmətlərində da-
yanırdılar. 33Orada xidmət edənlər və
onların oğulları bunlardır: Qohatın
nəslindən ilahi oxuyan Heman. Onun
nəsil şəcərəsi belədir: Yoel oğlu
Şamuel oğlu 34Elqana oğlu Yeroxam
oğlu Eliel oğlu Toah oğlu 35Suf oğlu
Elqana oğlu Maxat oğlu Amasay oğlu
36Elqana oğlu Yoel oğlu Azarya oğlu
Sefanya oğlu 37Taxat oğlu Assir oğlu
Evyasaf oğlu Qorah oğlu 38İshar oğlu
Qohat oğlu Levi oğlu İsrail oğlu.
39Sağında xidmət edən qohumu Asəf.
Onun nəsil şəcərəsi belədir: Berekya
oğlu Şima oğlu 40Mikael oğlu Baaseya
oğlu Malkiya oğlu 41Etni oğlu Zerah
oğlu Adaya oğlu 42Etan oğlu Zimma
oğlu Şimey oğlu 43Yaxat oğlu Gerşon
oğlu Levi oğlu. 44Sol tərəfində xidmət
edən qohumları Merarinin nəslindən
Etan. Onun nəsil şəcərəsi belədir: Qişi
oğlu Avdi oğlu Malluk oğlu 45Xaşav-
ya oğlu Amasya oğlu Xilqiya oğlu
46Amsi oğlu Bani oğlu Şemer oğlu
47Maxli oğlu Muşi oğlu Merari oğlu
Levi oğlu. 48Onların qohumları olan
Levililər müqəddəs məskən olan Allah
evinin bütün xidmət işlərinə təyin
olunmuşdu.

49Harunun və onun nəslinin öh-
dəsinə isə bu işlər qoyulmuşdu: yan-

**6:16-19** *Çıx. 6:16-19*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 481



dırma qurbangahında və buxur qurbangahında təqdim gətirilməsi, Ən Müqəddəs yerə aid hər iş – İsraillilərin günahlarını kəffarə etmək üçün Allahın qulu Musanın əmr etdiyi bütün işlər. 50Harunun nəsli budur: onun oğlu Eleazar, onun oğlu Pinxas, onun oğlu Avişua, 51onun oğlu Buqqi, onun oğlu Uzzi, onun oğlu Zerahya, 52onun oğlu Merayot, onun oğlu Amarya, onun oğlu Axituv, 53onun oğlu Sadoq, onun oğlu Aximaas.

### *Levililərə verilən şəhərlər*

54Levililərin öz torpaqlarında yaşadığı yerlər bunlardır: ilk püşk Qohat nəslindən olan Harunun övladlarına düşdüyü üçün onlara 55Yəhuda torpağında olan Xevronu və onun ətrafındakı otlaqları verdilər. 56Ancaq bu şəhərin çölünü və kəndlərini Yefunne oğlu Kalevə verdilər. 57Harunun nəslinə bu şəhərləri verdilər: sığınacaq şəhəri olan Xevron, Livna ilə otlaqları, Yattir, Eştemoa ilə otlaqları, 58Xilenlə otlaqları, Devirlə otlaqları, 59Aşanla otlaqları, Bet-Şemeşlə otlaqları, 60Binyamin qəbiləsinin torpağından Geva ilə otlaqları, Alemetlə otlaqları, Anatotla otlaqları. Onların bütün şəhərləri nəsillərinə görə on üç şəhərdir.

61Digər Qohat övladlarına isə Menaşşe qəbiləsinin yarısının torpağından püşkə görə on şəhər verildi. 62Gerşon övladlarına nəsillərinə görə İssakar qəbiləsinin, Aşer qəbiləsinin, Naftali qəbiləsinin və Başanda olan Menaşşe qəbiləsinin torpağından on üç şəhər verildi. 63Merari övladlarına nəsillərinə görə Ruven, Qad və Zevulun qəbilələrinin torpağından püşklə on iki şəhər verildi. 64İsrail övladları Levililərə bu şəhərləri və onların otlaqlarını verdilər. 65Yəhuda, Şimeon və Binyamin qəbilələrinin torpağından adları göstərilən bu şəhərləri püşkə görə verdilər.

66Qohat nəslindən bəzilərinə Efrayim qəbiləsinə aid şəhərləri verdilər. 67Efrayimin dağlıq bölgəsində sığınacaq şəhəri olan Şekemlə otlaqları, Gezerlə otlaqları, 68Yoqmeamla otlaqları, Bet-Xoronla otlaqları, 69Ayyalonla otlaqları, Qat-Rimmonla otlaqları. 70Menaşşe qəbiləsinin yarısının torpağından Anerlə otlaqları, Bileamla otlaqları Qohat nəslinin qalanına verildi.

71Gerşon nəslinə bu yerlər verildi: oğullarına Menaşşe qəbiləsinin yarısının torpağından Başandakı Qolanla otlaqları, Aştarotla otlaqları, 72İssakar qəbiləsinin torpağından Qedeşlə otlaqları, Davratla otlaqları, 73Ramotla otlaqları, Anemlə otlaqları, 74Aşer qəbiləsinin torpağından Maşalla otlaqları, Avdonla otlaqları, 75Xuqoqla otlaqları, Rexovla otlaqları, 76Naftali qəbiləsinin torpağından Qalileyada olan Qedeşlə otlaqları, Xammonla otlaqları, Qiryatayimlə otlaqları.

77Merari nəslinin digər adamlarına bu yerlər verildi: Zevulun qəbiləsinin torpağından Rimmono ilə otlaqları, Tavorla otlaqları, 78Yerixonun qarşısındakı, İordan çayının şərq tərəfində olan Ruven qəbiləsinin torpağından səhradakı Beserlə otlaqları, Yahsa ilə otlaqları, 79Qedemotla otlaqları, Mefaatla otlaqları, 80Qad qəbiləsinin torpağından Gileaddakı Ramotla otlaqları, Maxanayimlə otlaqları, 81Xeşbonla otlaqları, Yazerlə otlaqları.

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 482



### *İssakarın nəsilləri*

7 1İssakarın oğulları: Tola, Pua,
Yaşuv və Şimron – cəmisi dörd
nəfər. 2Tolanın oğulları: Uzzi, Refaya,
Yeriel, Yaxmay, İvsam və Şamuel.
Bunlar Tolanın nəsil başçıları idi.
Davudun dövründə onların nəslindən
olan igid döyüşçülər iyirmi iki min altı
yüz nəfər idi. 3Uzzinin nəsli: İzrahya
və onun oğulları: Mikael, Avdiya,
Yoel, İşşiya – cəmisi beş nəfər. Onların
hamısı başçı idi. 4Bunlardan başqa
nəsil şəcərələrinə görə döyüşə bilən
dəstələrdə otuz altı min nəfər var idi,
çünki onların çoxlu arvadları və oğul-
ları var idi. 5İssakarın bütün nəsilləri
arasında igid döyüşçülər olan qo-
humları nəsil şəcərəsinə görə cəmisi
səksən yeddi min nəfər idi.

### *Binyaminin nəsilləri*

6Binyaminin oğulları: Bela, Beker
və Yediael – cəmisi üç nəfər. 7Belanın
oğulları: Esbon, Uzzi, Uzziel, Yerimot
və İri – cəmisi beş nəfər nəsil başçısı.
Onların nəslindən olan igid döyüşçülər
nəsil şəcərələrinə görə iyirmi iki min
otuz dörd nəfər idi. 8Bekerin oğulları:
Zemira, Yoaş, Eliezer, Elyoenay,
Omri, Yeremot, Aviya, Anatot və
Alemet. Bunların hamısı Bekerin oğul-
ları idi. 9Nəsil başçılarının şəcərəsinə
görə onların igid döyüşçüləri iyirmi
min iki yüz nəfər idi. 10Yediaelin nəsli:
Bilhan və onun oğulları Yeuş, Bin-
yamin, Ehud, Kenaana, Zetan, Tarşiş
və Axişaxar. 11Bunların hamısı Yedia-
elin nəsil başçıları idi. Onlardan dö-
yüşə bilən igid döyüşçülər on yeddi
min iki yüz nəfər idi. 12İrin nəsilləri:
Şuflular və Xuflular. Xuşlular isə
Axerin nəslindən idi.

### *Naftalinin nəsilləri*

13Naftalinin oğulları: Yaxasiel,
Quni, Yeser, Şallum. Bunlar Bilhanın
nəsilləri idi.

### *Menaşşenin nəsilləri*

14Menaşşenin oğulları: Aramlı
cariyəsinin doğduğu Asriel, həmin
qadının doğduğu Gileadın atası Ma-
kir. 15Makir Xuflulardan və Şuflular-
dan bir arvad aldı. Onun bacısının adı
Maaka idi. Selofxad isə onların qo-
humu idi. Onun yalnız qızları var idi.
16Makirin arvadının da adı Maaka idi.
O, bir oğul doğub adını Pereş qoydu.
Pereşin qardaşının adı Şereş idi, onun
oğulları isə Ulam və Reqem idi.
17Ulamın oğlu Bedan idi. Menaşşe
oğlu Makir oğlu Gileadın nəsli bun-
lardır. 18Onun bacısı Hammoleket
İşhodu, Aviezeri və Maxlanı doğdu.
19Şemidanın oğulları: Axyan, Şekem,
Liqxi və Aniam.

### *Efrayimin nəsilləri*

20Efrayimin nəsli: Şutelah, onun
oğlu Bered, onun oğlu Taxat, onun
oğlu Eleada, onun oğlu Taxat, 21onun
oğlu Zavad, onun oğlu Şutelah. Ef-
rayimin başqa oğulları Ezer və Eleadı
o torpağın yerli sakinləri olan Qatlılar
öldürdü, çünki onların heyvanlarını
oğurlamağa getmişdilər. 22Ataları Ef-
rayim uzun müddət onlara yas tutdu
və qohumları ona təsəlli vermək üçün
gəldi. 23Sonra o, arvadının yanına
girdi, qadın hamilə oldu və bir oğul
doğdu. Atası onun adını Beria[a] qoy-
du, çünki evinə bəla üz vermişdi.
24Onun Şeera adlı qızı da var idi. O,

a **7:23** *Beria* – ibrani dilində *bəla içində.*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 483



Aşağı və Yuxarı Bet-Xoronu, Uzzen-
Şeeranı tikdi. 25Efrayimin başqa oğlu
Refah, onun oğlu Reşef, onun oğlu
Telah, onun oğlu Taxan, 26onun oğlu
Ladan, onun oğlu Ammihud, onun
oğlu Elişama, 27onun oğlu Nun, onun
oğlu Yeşua. 28Onların mülkləri və
yaşadıqları yerlər bunlardır: Bet-Ellə
qəsəbələri, şərq tərəfdə Naaran, qərb
tərəfdə Gezerlə qəsəbələri, Şekemlə
qəsəbələri, Ayya ilə qəsəbələri, 29həm
də Menaşşelilərin torpağına yaxın
olan Bet-Şeanla qəsəbələri, Taanakla
qəsəbələri, Megiddo ilə qəsəbələri,
Dorla qəsəbələri. İsrail oğlu Yusifin
nəsli bu yerlərdə yaşadı.

### *Aşerin nəsilləri*

30Aşerin övladları: İmna, İşva, İşvi,
Beria və onların bacısı Serah. 31Be-
rianın oğulları: Xever və Birzayitin
atası olan Malkiel. 32Xever bunların
atası idi: Yaflet, Şomer, Xotam və
onların bacısı Şua. 33Yafletin oğulları
bunlardır: Pasak, Bimhal və Aşvat.
34Şemerin oğulları: Axi, Rohqa, Xub-
ba və Aram. 35Onun qardaşı Helemin
oğulları: Sofah, İmna, Şeleş və Amal.
36Sofahın oğulları: Suah, Xarnefer,
Şual, Beri, İmra, 37Beser, Hod, Şam-
ma, Şilşa, İtran və Beera. 38Yeterin
oğulları: Yefunne, Pispa və Ara.
39Ullanın oğulları: Arah, Xanniel və
Risya. 40Aşerin nəslindən olan bu
adamların hamısı nəsil başçıları, se-
çilmiş adamlar, igid döyüşçülər və baş
rəislər idi. Onlardan döyüşə bilən
adamlar nəsil şəcərələrinə görə iyirmi
altı min nəfər idi.

### *Binyaminin nəsilləri*

8 1Binyaminin oğulları bunlardır:
ilk oğlu Bela, ikincisi Aşbel,
üçüncüsü Axrah, 2dördüncüsü Noxa,
beşincisi Rafa. 3Belanın oğulları bun-
lardır: Addar, Gera, Avihud, 4Avişua,
Naaman, Axoah, 5Gera, Şefufan və
Xuram. 6Gevada yaşayanların nəsil
başçıları olan, sonra isə Manaxata
köçürülən Ehudun oğulları bunlardır:
7Naaman, Axiya və onları köçürən
Gera. Geradan Uzza və Axixud törədi.
8Şaxarayim arvadları Xuşim və Ba-
aranı boşadıqdan sonra Moav ölkə-
sində övlad atası oldu, 9arvadı Xodeş
ona bunları doğdu: Yovav, Sivya,
Meşa, Malkam, 10Yeus, Sakya və
Mirma. Onun bu oğulları nəsil baş-
çıları idi. 11Xuşim isə ona Avituvu və
Elpaalı doğmuşdu. 12Elpaalın oğul-
ları: Ever, Mişam və Şamed. Şamed
Ono ilə Lodu, onun qəsəbələrini tikdi.
13Ayyalonda yaşayanların nəsil baş-
çıları Beria və Şema idi. Onlar Qatda
yaşayanları qovdu. 14Berianın oğul-
ları: Axyo, Şaşaq, Yeremot, 15Ze-
vadya, Arad, Eder, 16Mikael, İşpa və
Yoxa. 17Elpaalın oğulları: Zevadya,
Meşullam, Xizqi, Xever, 18İşmeray,
İzlia və Yovav. 19Şimeyin oğulları:
Yaqim, Zikri, Zavdi, 20Elienay, Sil-
letay, Eliel, 21Adaya, Beraya və Şim-
rat. 22Şaşaqın oğulları: İşpan, Ever,
Eliel, 23Avdon, Zikri, Xanan, 24Xa-
nanya, Elam, Antotiya, 25İfdeya və
Penuel. 26Yeroxamın oğulları: Şam-
şeray, Şexarya, Atalya, 27Yaareşya,
İlyas və Zikri. 28Bunlar nəsil şəcərə-
lərinə görə nəsil başçıları idi və Ye-
rusəlimdə yaşadılar.

### *Padşah Şaulun əcdadları və nəsilləri*

29Giveonun atası Yeiel Giveonda
yaşayırdı və arvadının adı Maaka idi.
30İlk oğlu Avdon idi, o biriləri isə
bunlar idi: Sur, Qiş, Baal, Nadav,

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 484



31Qedor, Axyo, Zeker, 32Şimanın ata-
sı Miqlot. Onlar qohumlarının yanın-
da, Yerusəlimdə qohumları ilə birgə
yaşayırdı. 33Nerdən Qiş törədi və
Qişdən Şaul törədi. Şauldan Yonatan,
Malki-Şua, Avinadav və Eşbaal[a]
törədi. 34Yonatanın oğlu Merib-Baal[b]
idi. Merib-Baaldan Mikeya törədi.
35Mikeyanın oğulları: Piton, Melek,
Tarea və Axaz. 36Axazdan Yehoadda
törədi. Yehoaddadan Alemet, Azma-
vet və Zimri törədi. Zimridən Mosa
törədi. 37Mosadan Bina törədi. Bi-
nanın oğlu Rafa, onun oğlu Elasa,
onun oğlu Asel. 38Aselin altı oğlu var
idi, onların adları belədir: Azriqam,
Bokru, İsmail, Şearya, Avdiya və
Xanan. Bunların hamısı Aselin oğul-
ları idi. 39Onun qardaşı Eseqin oğul-
ları: ilk oğlu Ulam, ikincisi Yeuş və
üçüncüsü Elifelet. 40Ulamın oğulları
oxatan igid döyüşçülər idi. Oğulları və
nəvələri çox idi: yüz əlli nəfər. Bunla-
rın hamısı Binyaminin nəslindəndir.

### *Yerusəlimin sakinləri*

9 1Beləcə bütün İsraillilər nəsil şə-
cərələrində qeyd olunmuşdu və
bunlar İsrail padşahlarının kitabında
yazılmışdır.

Yəhudalılar xainliklərinə görə
Babilə sürgün olunmuşdu. 2İlk dəfə
mülklərinə qayıdıb yaşayanlar İsrailli-
lərdən bəzi adamlar, kahinlər, Levili-
lər və məbəd qulluqçuları idi. 3Yeru-
səlimdə isə Yəhudalılardan, Binya-
minlilərdən, Efrayimlilərdən və Me-
naşşelilərdən olan bu adamlar yaşadı.
4Yəhudanın oğlu Peresin nəslindən:
Bani oğlu İmri oğlu Omri oğlu Am-
mihud oğlu Utay. 5Şelanın nəslindən:
ilk oğlu Asaya və onun oğulları.
6Zerahın nəslindən: Yeuel və onun
qohumları. Hamısı birlikdə altı yüz
doxsan nəfər idi. 7Binyaminin nəslin-
dən: Hassenua oğlu Hodavya oğlu
Meşullam oğlu Sallu, 8Yeroxam oğlu
İvniya, Mikri oğlu Uzzi oğlu Ela və
İvniya oğlu Reuel oğlu Şefatya oğlu
Meşullam. 9Onlar qohumları ilə birgə
nəsil şəcərələrinə görə doqquz yüz əlli
altı nəfər idi. Bunların hamısı nəsil
başçıları idi.

10Kahinlərdən: Yedaya, Yehoyariv,
Yakin, 11Allah məbədinin rəisi Axituv
oğlu Merayot oğlu Sadoq oğlu Me-
şullam oğlu Xilqiya oğlu Azarya,
12Malkiya oğlu Paşxur oğlu Yeroxam
oğlu Adaya və İmmer oğlu Meşillemit
oğlu Meşullam oğlu Yaxzera oğlu
Adiel oğlu Maasay. 13Bunlar nəsil
başçıları idi. Onlar qohumları ilə birgə
– Allah evinin xidməti işində bacarıqlı
olan bu adamlar min yeddi yüz altmış
nəfər idi.

14Levililərdən: Merarinin nəslindən
Xaşavya oğlu Azriqam oğlu Xaşşuv
oğlu Şemaya, 15Baqbaqqar, Xereş,
Qalal, Asəf oğlu Zikri oğlu Mikeya
oğlu Mattanya, 16Yedutun oğlu Qalal
oğlu Şemaya oğlu Avdiya və Netofa-
lıların kəndlərində yaşayan Elqana
oğlu Asa oğlu Berekya.

17Qapıçılar: Şallum, Aqquv, Tal-
mon, Aximan və onların qohumları.
Şallum onların başçısı idi. 18Onlar bu
günə qədər də məbədin şərq tərəfdəki
padşah qapısında keşik çəkirlər. Le-
vililərin düşərgə qapıçıları bunlardır.
19Qorah oğlu Evyasaf oğlu Qore oğlu
Şallum və onun Qorah nəslindən olan
qohumları məbədin astanalarında

a **8:33** *Eşbaal* – başqa adı İş-Boşet.
b **8:34** *Merib-Baal* – başqa adı Mefiboşet.
**9:2-3** *Ezr. 2:27; Neh. 7:73*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 485



keşik çəkənlərin xidmət işinə başçılıq
edirdi. Əvvəllər onların babaları Rəb-
bin düşərgəsinin girəcək yerinin ke-
şiyini çəkirdi. 20Eleazar oğlu Pinxas
onların başçısı idi və Rəbb onunla idi.
21Hüzur çadırının girişində Meşelem-
ya oğlu Zəkəriyyə qapıçı idi. 22Asta-
nalarda qapıçı olmaq üçün seçilən
bütün bu adamlar iki yüz on iki nəfər
idi. Onlar öz kəndlərində nəsil şəcə-
rələrində qeyd edilmişlər. Onları vəzi-
fələrinə Davud və görücü Şamuel təyin
etmişdi. 23Bu adamlar və onların
nəsilləri çadırın və Rəbbin məbədinin
qapılarında keşik çəkirdi. 24Bu qa-
pıçılar məbədin dörd tərəfində – şərq,
qərb, şimal və cənub qapılarında
dururdu. 25Öz kəndlərində yaşayan
qohumları vaxtaşırı yeddi günlüyə
onların yanına gəlməli idi. 26Allah
evinin otaqlarının və xəzinələrinin
keşiyini çəkmək Levili olan qapıçıların
dörd nəfər rəisinin öhdəsində idi.
27Onlar gecə də Allah evinin ətrafında
qalırdı, çünki onun keşiyini çəkmək və
hər səhər qapıları açmaq onların işi
idi.

28Onların bəzisi xidmət üçün olan
qablara baxırdı: bunları sayıb içəri
gətirir və sayıb bayıra aparırdılar.
29Bəziləri isə başqa əşyalar, bütün
təqdis olunmuş şeylər və un, şərab,
yağ, kündür, ətriyyatlar üzərində nə-
zarətçi qoyulmuşdu. 30Kahinlərdən
bəzisi ətriyyatlardan qatışıq maddə
hazırlayırdı. 31Kökələr bişirilməsi Qo-
rah nəslindən olan Şallumun ilk oğlu
olan Levili Mattityanın öhdəsində idi.
32Onların Qohat nəslindən olan qo-
humlarından bəzisinə isə hər Şənbə
günü çörək hazırlanması tapşırılmışdı.

33Levililərin nəsil başçıları olan
ilahiçilər başqa xidmətdən azad olub
məbədin otaqlarında qalırdılar, çünki
onlar gecə-gündüz öz işləri ilə məşğul
olmalı idi. 34Bunlar nəsil şəcərələrinə
görə Levililərin nəsil başçıları idi və
Yerusəlimdə yaşayırdılar.

### *Padşah Şaulun əcdadları və nəsilləri*

*(1Saln. 8:29-38)*

35Giveonun atası Yeiel Giveonda
yaşayırdı və arvadının adı Maaka idi.
36İlk oğlu Avdon idi, o biriləri isə
bunlar idi: Sur, Qiş, Baal, Ner, Nadav,
37Qedor, Axyo, Zəkəriyyə və Miqlot.
38Miqlotdan Şima törədi. Onlar
qohumlarının yanında, Yerusəlimdə
qohumları ilə birgə yaşayırdılar.
39Nerdən Qiş törədi. Qişdən Şaul
törədi. Şauldan Yonatan, Malki-Şua,
Avinadav və Eşbaal törədi. 40Yona-
tanın oğlu Merib-Baal idi. Merib-
Baaldan Mikeya törədi. 41Mikeyanın
oğulları: Piton, Melek, Taxrea və
Axaz. 42Axazdan Yehoadda[a] törədi.
Yehoaddadan Alemet, Azmavet və
Zimri törədi. Zimridən Mosa törədi.
43Mosadan Bina törədi. Binanın oğlu
Rafa, onun oğlu Elasa, onun oğlu
Asel. 44Aselin altı oğlu var idi, onların
adları belədir: Azriqam, Bokru, İsma-
il, Şearya, Avdiya və Xanan. Bunların
hamısı Aselin oğulları idi.

### *Şaulla oğullarının ölümü*

*(1Şam. 31:1-13)*

10 1Filiştlilər İsraillilərlə döyüşdü.
İsraillilər Filiştlilərin önündən
qaçdılar və qırılanlar Gilboa dağında
qaldı. 2Filiştlilər Şaulla oğullarını
təqib edib Şaulun oğulları Yonatanı,
Avinadavı və Malki-Şuanı öldürdülər.
3Döyüş Şaulun ətrafında şiddətlənən-

a **9:42** *Yehoadda* – ibrani mətnində *Yara,* 1Saln. 8:36 görə *Yehoadda* yazılır.

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 486



də oxatanlar onu tapdılar və ağır
yaraladılar. 4Şaul öz silahdarına dedi:
«Qılıncını çək, məni vur, yoxsa bu
sünnətsizlər gəlib mənimlə əylənə-
cəklər». Lakin silahdarı çox qorxdu-
ğundan bunu etmək istəmədi. Ona
görə də Şaul qılıncını götürüb özünü
onun üstünə yıxdı. 5Şaulun öldüyünü
görəndə silahdarı da özünü qılıncının
üstünə yıxıb Şaulla birgə öldü. 6Beləcə
Şaul və üç oğlu öldü, bütün nəsli də
onunla birgə öldü. 7Dərədə olan bütün
İsraillilər öz ordularının qaçdığını və
Şaulla oğullarının öldüyünü görəndə
şəhərlərini qoyub qaçdılar. Filiştlilər
gəlib o yerlərdə yaşadı.

8Ertəsi gün Filiştlilər öldürülənləri
soymaq üçün gələndə Gilboa dağında
Şaulla oğullarının meyitini tapdılar.
9Onun paltarlarını soyundurdular,
başını və silahlarını götürdülər, öz büt-
lərinin məbədinə və xalqa xoş xəbər
vermək üçün Filiştlilərin ölkəsinin hər
tərəfinə qasid göndərdilər. 10Şaulun
silahlarını öz allahlarının məbədinə
qoydular və başını Daqon məbədinə
mıxladılar. 11Yaveş-Gilead əhalisi
Filiştlilərin Şaula etdiklərini eşidəndə
12onların bütün igidləri qalxıb Şaulla
oğullarının cəsədini götürərək Yaveşə
gətirdilər. Onların sümüklərini götü-
rüb Yaveşdə olan palıd ağacının al-
tında basdırdılar və yeddi gün oruc
tutdular.

13Beləcə Şaul Rəbbə qarşı xainlik
etdiyi üçün öldü. O, Rəbbin sözünə
əməl etməyib[1] cindara müraciət etdi,[2]
14amma Rəbdən məsləhət istəmədi.
Ona görə də Rəbb onu öldürdü və
padşahlığı Yesseyin oğlu Davuda
verdi.

### *Davudun taxta çıxması*

*(2Şam. 5:1-10)*

11 1Bütün İsraillilər Xevrona, Da-
vudun yanına toplaşıb dedilər:
«Bax biz sənin sümüyündən, sənin
ətindənik. 2Əvvəlki vaxtlarda, Şaul
padşahımız olanda da İsrailliləri yü-
rüşlərə aparan və gətirən sən idin.
Allahın Rəbb sənə demişdi ki, xalqım
İsrailə sən çobanlıq edəcəksən, xalqım
İsrail üzərində sən hökmdar olacaq-
san». 3İsrailin bütün ağsaqqalları Xev-
rona, padşahın yanına gəldilər. Davud
Xevronda, Rəbbin önündə onlarla əhd
bağladı və onlar Şamuel vasitəsilə
Rəbbin söylədiyi sözə görə Davudu
İsrail üzərində padşah olmaq üçün
məsh etdilər.

### *Davudun Yerusəlimi paytaxt şəhərinə çevirməsi*

4Davud və bütün İsraillilər Yerusə-
limə gəldilər. O vaxt şəhər Yevus
adlanırdı və burada Yevuslular yaşa-
yırdı. 5Onlar Davuda dedilər: «Sən
buraya girə bilməzsən». Ancaq Da-
vud indi «Davudun şəhəri» adlanan
Sion qalasını aldı. 6Davud dedi:
«Yevusluları hamıdan əvvəl kim məğ-
lub etsə, rəis və ordu başçısı o ola-
caq». Seruya oğlu Yoav hamıdan
əvvəl Yevusa qalxdı və buna görə də
o, başçı oldu. 7Davud qalada məskən
saldı və buna görə onu «Davudun
şəhəri» adlandırdılar. 8O, qala yama-
cından qalanın ətrafına qədər bütün
yerləri tikdi. Yoav isə şəhərin qalan
hissəsini bərpa etdi. 9Davud getdikcə
yüksəlirdi, çünki Ordular Rəbbi
onunla idi.

---

**10:13-14** – [1]*1Şam. 13:8-14; 15:1-24;* [2]*Lev. 19:31; 20:6; 1Şam. 28:7-8*
**11:4** *Yeşua 15:63; Hak. 1:21*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 487



### *Davudun igid döyüşçüləri*

*(2Şam. 23:8-39)*

10Davudun igid döyüşçülərinin baş-
çıları bütün İsraillilərlə birgə Rəbbin
sözünə görə Davudu İsrail üzərində
padşah etmək üçün onun padşahlı-
ğında şücaət göstərirdilər. 11Davudun
igid döyüşçülərinin siyahısı belədir:
«otuz igid»in başçısı olan Xakmoni
oğlu Yaşoveam. O, bir hücumda üç
yüz nəfəri nizəsi ilə vurub öldürdü.
12Ondan sonra «üç igid»dən biri olan
Axoahlı Dodo oğlu Eleazar idi. 13Fi-
liştlilər döyüşmək üçün Pas-Dam-
mimdə toplaşanda o da Davudla birgə
orada idi. Orada arpa əkilən bir tarla
sahəsi var idi. Xalq Filiştlilərin önün-
dən qaçdı. 14Lakin Eleazar və döyüş-
çüləri bu sahənin ortasında durub
oranı qorudular və Filiştliləri qırdılar.
Rəbb İsraililləri xilas edib böyük zəfər
qazandırdı.

15Otuz başçı arasından «üç igid»
qayaya, Davudun yanına, Adullam
mağarasına enib gəldi. Filiştlilərin
ordusu Refaim vadisində ordugah
qurmuşdu. 16Bu zaman Davud qalada
idi, Filiştlilərin bir keşikçi dəstəsi isə
Bet-Lexemdə idi. 17Davud həsrət
çəkərək dedi: «Kaş ki biri Bet-Lexem
darvazasının yanındakı quyudan
mənə içmək üçün su gətirəydi!» 18Bu
üç nəfər Filiştlilərin ordugahını yara-
raq darvazanın yanında olan Bet-
Lexem quyusundan su çəkdilər və onu
götürüb Davuda gətirdilər. Lakin
Davud suyu içmək istəmədi və Rəbbə
təqdim olaraq yerə tökdü. 19O dedi:
«Allahım bunu etməkdən məni uzaq
eləsin. Bu adamların qanını içəcəyəm-
mi? Axı canlarını təhlükəyə salaraq bu
suyu gətirdilər». Buna görə də bu suyu
içmək istəmədi. Bunları «üç igid»
etmişdi.

20Yoavın qardaşı Avişay bu «üç
igid»in başçısı idi. O, nizəsini qaldırıb
üç yüz nəfəri qırdı. Buna görə də onun
adı «üç igid»in adı qədər şöhrətləndi.
21Əslində «üç igid»dən ikiqat artıq
şöhrəti var idi və onlara başçı oldu,
lakin «üç igid» kimi deyildi.

22Yehoyada oğlu Benaya da böyük
işlər görmüş igid adam idi. O, Qav-
seeldən gəlmişdi. Benaya iki Moavlı
igidi öldürdü. O, qarlı gündə çuxura
enib bir şir öldürdü. 23O həm də boyu
beş qulac olan bir Misirlini öldürdü.
Misirlinin əlində toxucu dəzgahının
əriş ağacı boyda nizə var idi. Benaya
onun üstünə dəyənəklə getdi, nizəni
Misirlinin əlindən çəkib aldı və onu öz
nizəsi ilə öldürdü. 24Bunları Yehoyada
oğlu Benaya etdi, buna görə də onun
«üç igid» qədər şöhrəti var idi. 25O,
«otuz igid»dən daha şöhrətli idi, lakin
«üç igid» kimi deyildi. Davud onu öz
mühafizəçilərinə başçı qoydu.

26Ordunun igid döyüşçüləri bun-
lardır: Yoavın qardaşı Asahel, Bet-
Lexemli Dodo oğlu Elxanan, 27Ha-
rorlu Şammot, Pelonlu Xeles,
28Teqoalı İqqeş oğlu İra, Anatotlu
Aviezer, 29Xuşalı Sibbekay, Axoahlı
İlay, 30Netofalı Mahray, Netofalı
Baana oğlu Xeled, 31Binyamin övlad-
larından Givealı Rivay oğlu Yetay,
Piratonlu Benaya, 32Qaaş vadisindən
olan Xuray, Aravalı Aviel, 33Baxa-
rumlu Azmavet, Şaalvonlu Elyaxba,
34Gizonlu Haşemin oğulları, Hararlı
Şage oğlu Yonatan, 35Hararlı Sakar
oğlu Axiam, Ur oğlu Elifal, 36Meke-
ralı Xefer, Pelonlu Axiya, 37Karmelli
Xesro, Ezbay oğlu Naaray, 38Natanın
qardaşı Yoel, Haqri oğlu Mivxar,

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 488



[39]Ammonlu Seleq, Seruya oğlu
Yoavın silahdarı olan Beerotlu
Naxray, [40]Yeterli İra, Yeterli Qarev,
[41]Xetli Uriya, Axlay oğlu Zavad,
[42]Ruvenlilərin başçısı Ruvenli Şiza
oğlu Adina və onunla birgə otuz
nəfər, [43]Maaka oğlu Xanan və Me-
tenli Yehoşafat, [44]Aşteratlı Uzziya,
Aroerli Xotamın oğulları Şama və
Yeiel, [45]Şimri oğlu Yediael və qardaşı
Tisli Yoxa, [46]Maxavlı Eliel və El-
naamın oğulları Yerivay, Yoşavya və
Moavlı Yetma, [47]Eliel, Oved və Me-
sovalı Yaasiel.

### *Davuda qoşulan döyüşçülər*

12 [1]Davud, Qiş oğlu Şauldan
gizlənən vaxt bir neçə nəfər
Ziqlaqa, Davudun yanına gəldi. Onlar
döyüşdə ona kömək edən igidlər
arasında idi. [2]Binyamin nəslindən,
Şaulun qohumlarından olan bu adam-
lar ox-kamanla silahlanıb sağ və sol
əllə sapanddan daş atmağı və kamanla
ox atmağı bacarırdı. Onların adları
belədir: [3]onların başçısı olan Givealı
Şemaanın oğulları, Axiezer və Yoaş,
Azmavetin oğulları Yeziel və Pelet,
Beraka və Anatotlu Yehu, [4]«otuz
igid»dən biri olan və onlara başçılıq
edən Giveonlu İşmaya, Yeremya,
Yaxaziel, Yoxanan, Gederalı Yo-
zavad, [5]Eluzay, Yerimot, Bealya,
Şemarya, Xaruflu Şefatya, [6]Qorahın
nəslindən olan Elqana, İşşiya, Azarel,
Yoezer, Yaşoveam, [7]Qedorlu Yero-
xam oğulları Yoela və Zevadya.

[8]Qadlılardan sipər və nizə işlədə
bilən, döyüşməyi bacaran igidlər Da-
vudun tərəfinə keçdilər və çöldəki
qalaya gəldilər. Onların üzləri şir üzü
kimi idi və dağlardakı ceyranlar kimi
qaça bilirdilər. [9]Bu başçıların adları
belədir: Ezer, ikincisi Avdiya, üçün-
cüsü Eliav, [10]dördüncüsü Mişmanna,
beşincisi Yeremya, [11]altıncısı Attay,
yeddincisi Eliel, [12]səkkizincisi Yoxa-
nan, doqquzuncusu Elzavad, [13]onun-
cusu Yeremya, on birincisi Makban-
nay. [14]Bunlar Qadlılardan olan qoşun
başçıları idi. Ən zəifi yüz adamın, ən
güclüsü isə min adamın qabağına çıxa
bilərdi. [15]Onlar birinci ayda, İordan
çayı bütün sahilləri boyu daşanda onu
keçib vadilərdə yaşayanların hamısını
şərqə və qərbə tərəf qovdular.

[16]Binyaminlilərdən və Yəhudalı-
lardan da Davudun yanına, qalaya
adamlar gəldi. [17]Davud onları qar-
şılamağa çıxdı və onlara dedi: «Əgər
mənə kömək üçün sülhlə gəlmisinizsə,
gözüm üstə yeriniz var, ancaq zora-
kılıq etmədiyim halda məni düşmən-
lərimə təslim etmək üçün gəlmisinizsə,
atalarımızın Allahı bunu görsün və
hökm etsin». [18]Ruh «otuz igid»in
başçısı Amasayın üzərinə endi və o
dedi:

«Ey Davud, biz səninləyik,
Ey Yessey oğlu, biz sənin
tərəfindəyik.
Sülh, sülh olsun sənə və sənə
kömək edənə,
Çünki Allahın sənə kömək edir».

Davud onları götürüb dəstə başçı-
ları təyin etdi.

[19]Davud Filiştlilərlə birgə müharibə
etmək üçün Şaulun üstünə gələndə
Menaşşelilərdən də bəzisi Davudun
tərəfinə keçdi, ancaq Filiştlilərə kömək
etmədilər. Çünki Filiştlilərin ağaları
məsləhətləşib «Davud bizim başımızı
verib ağası Şaulla barışacaq» dedilər
və onu geri göndərdilər. [20]Davud
Ziqlaqa gedərkən onun tərəfinə keçən
Menaşşelilər bunlardır: Adnah, Yoza-

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 489



vad, Yediael, Mikael, Yozavad, Elihu
və Silletay. Onların hamısı Menaş-
şelilər arasında minbaşı idi. 21Onlar
quldur dəstəsinə qarşı döyüşdə Da-
vuda kömək etdilər, çünki onların
hamısı igid adamlar idi. Sonra onlar
qoşun başçıları oldu. 22Beləcə gündən-
günə Davuda kömək etmək üçün onun
yanına döyüşçülər gəlirdi və onun
ordusu Allah ordusu qədər böyük
oldu.

### *Davudu padşah etmək üçün gələn adamlar*

23Rəbbin sözünə görə Şaulun pad-
şahlığını Davuda vermək üçün onun
yanına, Xevrona gələn silahlanmış
döyüşçülərin sayı belədir: 24Yəhudalı-
lardan altı min səkkiz yüz nəfər sipər
və nizə ilə silahlanmış əsgər; 25Şime-
onlulardan döyüş üçün yeddi min yüz
nəfər igid döyüşçü; 26Levililərdən dörd
min altı yüz nəfər; 27Harun evinin
rəhbəri Yehoyada və onunla birgə üç
min yeddi yüz nəfər; 28gənc və igid bir
döyüşçü olan Sadoq və onun nəslindən
olan iyirmi iki başçı; 29Şaulun qohum-
ları olan Binyaminlilərin əksəriyyəti o
vaxta qədər Şaul sülaləsinə sadiq
qaldığı üçün onlardan yalnız üç min
nəfər; 30Efrayimlilərdən iyirmi min
səkkiz yüz nəfər igid və öz nəsillərinin
adlı-sanlı adamları; 31Menaşşe qə-
biləsinin yarısının arasından gəlib
Davudu padşah etmək üçün təyin
olunmuş on səkkiz min nəfər; 32İs-
sakarlılardan dövrün vəziyyətinə görə
İsrailə nə etmək lazım gəldiyini bilən
adamlar – iki yüz nəfər başçı və on-
ların əmri altında olan bütün qohum-
ları; 33Zevulunlulardan döyüşməyi
bacaran, bütün silahlarla döyüş
nizamını qura bilən və sidq ürəkdən
kömək edən əlli min nəfər; 34Naftali-
lilərdən min başçı, onlarla birgə sipər
və nizəsi olan otuz yeddi min nəfər;
35Danlılardan döyüş nizamını qura
bilən iyirmi səkkiz min altı yüz nəfər;
36Aşerlilərdən döyüşməyi bacaran və
döyüş nizamını qura bilən qırx min
nəfər; 37İordan çayının o tayında
yaşayan Ruvenlilərdən, Qadlılardan
və Menaşşe qəbiləsinin yarısından
döyüş üçün hər cür silahı olan yüz
iyirmi min nəfər.

38Döyüşməyi bacaran bu könüllü
döyüşçülərin hamısı Davudu bütün
İsrail üzərində padşah etmək üçün
Xevrona gəldi. İsraillilərin qalan
hissəsi də Davudu yekdilliklə padşah
etmək niyyətində idi. 39Döyüşçülər
orada üç gün Davudla birgə qaldılar
və yeyib-içdilər, çünki qohumları on-
lar üçün hazırlıq görmüşdü. 40İssaka-
ra, Zevuluna və Naftaliyə qədər ya-
yılmış yaxınları da onlara eşşəklər,
dəvələr, qatırlar və öküzlər üstündə
ərzaq – yaxşı un, sıxılmış əncir, kişmiş,
şərab, yağ, mal-qara və qoyun-keçi
gətirmişdi. O zaman İsraildə şadlıq var
idi.

### *Davud Əhd sandığını Qiryat-Yearimdən köçürür*

*(2Şam. 6:1-11)*

13 1Davud minbaşılar, yüzbaşılar
və bütün başçılarla məsləhət-
ləşdi. 2O bütün İsrail camaatına dedi:
«Əgər bu iş sizə xoş gəlsə və Allahımız
Rəbbin iradəsi ilə olsa, İsrailin hər
tərəfində yaşayan soydaşlarımıza,
onlarla birgə otlağı olan şəhərlərdə
yaşayan kahinlərə və Levililərə xəbər
göndərək ki, bizim yanımıza toplan-
sınlar. 3Sonra Allahımızın sandığını
yanımıza qaytaraq, axı Şaulun döv-

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 490



ründə biz ona məhəl qoymurduq».
4 Bütün camaat «belə edək» dedi, çünki
bütün xalqın nəzərində bu iş doğru idi.
5 Davud Allahın sandığını Qiryat-
Yearimdən gətirmək üçün Misirdəki
Şixor çayından Xamat keçidinə qədər
uzanan torpaqda yaşayan bütün İsra-
illiləri topladı. 6 Davud bütün İsrail-
lilərlə birgə «keruvlar üzərində taxt
quran Rəbb» çağırılan Allahın san-
dığını Yəhudaya məxsus olan Baalat-
dan, yəni Qiryat-Yearimdən çıxart-
maq üçün oraya getdi. 7 Allahın san-
dığını bir təzə arabaya qoyub Avi-
nadavın evindən apardılar. Arabanı
Uzza və Axyo sürürdü. 8 Davud və
bütün İsraillilər Allahın hüzurunda
həvəslə ilahi oxuyur, liralarla, çəng-
lərlə, dəflərlə, sinclərlə və kərənaylarla
çalıb oynayırdılar.
9 Kidonun xırman yerindən
keçəndə öküzlər büdrədi. Buna görə
də Uzza əl uzadıb sandığı tutdu.
10 Uzza əlini uzadaraq sandığa to-
xunduğu üçün Rəbb qəzəblənib onu
vurdu. Beləcə Uzza orada Allahın
önündə öldü. 11 Davud Rəbbin Uzzanı
vurmasından çox məyus oldu. O yerə
bu günə qədər Peres-Uzza[a] deyilir.
12 Həmin gün Davud Allahdan qorxub
dedi: «Allahın sandığını necə yanıma
gətirə bilərəm?» 13 Buna görə də
Davud sandığı öz yanına – Davudun
şəhərinə gətirmədi, onu yolundan
döndərib Qatlı Oved-Edomun evinə
qoydu. 14 Allahın sandığı üç ay Oved-
Edomun evində – onun ailəsinin
yanında qaldı. Rəbb Oved-Edomun
ailəsinə və ona məxsus hər şeyə bə-
rəkət verdi.

### *Davudun Yerusəlimdə padşahlıq etməsi*

*(2Şam. 5:11-16)*

14 1 Sur padşahı Xiram Davudun
yanına qasidlər və ona saray
tikmək üçün sidr ağacları, bənnalar və
dülgərlər göndərdi. 2 Onda Davud başa
düşdü ki, Rəbb onu İsrail üzərində
padşah kimi möhkəmləndirmiş və xal-
qı İsrailin xatirinə onun padşahlığını
yüksəltmişdi.
3 Davud Yerusəlimdə başqa arvad-
lar aldı, yenə oğullar və qızlar atası
oldu. 4 Onun Yerusəlimdə doğulan
oğullarının adları belədir: Şammua,
Şovav, Natan, Süleyman, 5 İvxar, Eli-
şua, Elpelet, 6 Noqah, Nefeq, Yafia,
7 Elişama, Beelyada və Elifelet.

### *İki döyüşdə Filiştlilər üzərində qələbə*

*(2Şam. 5:17-25)*

8 Filiştlilər eşitdilər ki, Davud bütün
İsrail üzərində padşah olmaq üçün
məsh edilmişdir. Onda hamısı Davudu
axtarmağa çıxdı. Davud bunu eşidib
onlarla qarşılaşmağa çıxdı. 9 Filiştlilər
gəlib Refaim vadisini talayırdılar.
10 Davud Allahdan soruşdu: «Filişt-
lilərin qarşısına çıxımmı? Onları mənə
təslim edəcəksənmi?» Rəbb ona cavab
verdi: «Çıx, onları sənə təslim edəcə-
yəm».
11 Davud Baal-Perasimə çıxıb
Filiştliləri qırdı. Davud dedi: «Sellər
bəndləri dağıtdığı kimi Allah da
mənim əlimlə düşmənlərimi dağıtdı».
Buna görə də o yerin adını Baal-
Perasim[b] qoydular. 12 Filiştlilər qaçan-
da öz allahlarının bütlərini orada qoy-
dular. Davudun əmri ilə bunlar odda

---

a **13:11** *Peres-Uzza* – ibrani dilində *Uzzanın cəzası.*

b **14:11** *Baal-Perasim* – ibrani dilində *dağıtma ağası.*

**13:5** *1Şam. 7:1-2* **13:6** *Çıx. 25:22* **13:14** *1Saln. 26:4-5*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 491



yandırıldı.
13Filiştlilər yenə o vadini taladılar.
14Davud yenə Allahdan soruşdu və
Allah ona dedi: «Onların arxasınca
çıxma, onların ətrafına dolanıb bal-
zam ağaclarının qabağında bu düş-
mənlərin üstünə gəl. 15Balzam ağac-
larının başından addım səsləri eşi-
dəndə döyüşə çıx, çünki o zaman Allah
sənin qarşınca Filiştlilərin ordusunu
məğlub etmək üçün çıxacaq». 16Da-
vud Allahın ona buyurduğu kimi etdi
və onlar Giveondan Gezerə qədər Fi-
liştlilərin ordusunu qırdılar. 17Davu-
dun şöhrəti bütün ölkələrə yayıldı və
Rəbb onun qorxusunu bütün millət-
lərin ürəyinə saldı.

### *Allahın sandığını Yerusəlimə gətirmək üçün hazırlıq görülür*

15 1Davud özü üçün Davudun
şəhərində evlər tikdi və Allahın
sandığı üçün də yer hazırlayıb çadır
qurdu. 2Onda Davud dedi: «Levililər-
dən başqa heç kəs Allahın sandığını
daşıya bilməz, çünki Rəbbin sandığını
daşımaq və Ona əbədi olaraq xidmət
etmək üçün Rəbb onları seçdi».
3Davud Rəbbin sandığını onun üçün
hazırladığı yerə çıxarmaq üçün bütün
İsraillilər Yerusəlimə yığdı. 4Davud
Harunun nəslindən olan adamları və
Levililəri topladı: 5Qohat nəslindən
başçı Uriel və onun yüz iyirmi nəfər
qohumu; 6Merarinin nəslindən başçı
Asaya və onun iki yüz iyirmi nəfər
qohumu; 7Gerşon nəslindən başçı
Yoel və onun yüz otuz nəfər qohumu;
8Elisafan nəslindən başçı Şemaya və
onun iki yüz nəfər qohumu; 9Xevron
nəslindən başçı Eliel və onun səksən
nəfər qohumu; 10Uzziel nəslindən
başçı Amminadav və onun yüz on iki
nəfər qohumu. 11Davud kahin olan
Sadoqu və Evyatarı, Levili olan Urieli,
Asayanı, Yoeli, Şemayanı, Elieli və
Amminadavı çağırıb 12onlara dedi:
«Siz Levililər arasında nəsil başçıları-
sınız. Siz və qohumlarınız özünüzü
təqdis edin və İsrailin Allahı Rəbbin
sandığını onun üçün hazırladığım yerə
çıxarın. 13Çünki keçən dəfə siz onu
daşımadığınıza və lazım olduğu kimi
Allahımız Rəbbi axtarmadığımıza
görə O bizi cəzalandırdı».
14İsrailin Allahı Rəbbin sandığını
çıxarmaq üçün kahinlərlə Levililər
özlərini təqdis etdilər. 15Rəbbin sözünə
görə, Musanın əmr etdiyi kimi Levi-
lilər Allahın sandığının şüvüllərini
çiyinlərinə qoyub onu daşıdılar.
16Davud Levililərin başçılarına əmr
etdi ki, şadlıq etmək üçün öz qohum-
ları arasından musiqi alətlərində –
çənglərdə, liralarda və sinclərdə çalıb-
oxuyan ilahiçilər təyin etsinlər. 17Le-
vililər bu adamları təyin etdilər: Yoel
oğlu Heman, onun qohumlarından
Berekya oğlu Asəf – qohumları Me-
rari nəslindən Quşaya oğlu Etan,
18onların köməkçisi olan Zəkəriyyə,
Ben, Yaaziel, Şemiramot, Yexiel, Un-
ni, Eliav, Benaya, Maaseya, Mattitya,
Elifelehu, Miqneya, qapıçılar Oved-
Edom və Yeiel. 19İlahiçilər Heman,
Asəf və Etan yüksək səsli tunc sinclər,
20Zəkəriyyə, Aziel, Şemiramot, Ye-
xiel, Unni, Eliav, Maaseya, Benaya
Alamot ahəngi üzrə çənglər, 21Mat-
titya, Elifelehu, Miqneya, Oved-
Edom, Yeiel və Azazya Şeminit ahəngi
üzrə lira çalmalı idi. 22Levililərin
rəhbəri Kenanya musiqiyə rəhbərlik
edirdi, çünki onun bu işdə bacarığı var

**15:2** *Qanun. 10:8* **15:15** *Çıx. 25:14*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 492



idi; 23Berekya və Elqana sandığın
yanında qapıçı idi; 24kahinlər Şe-
vanya, Yehoşafat, Netanel, Amasay,
Zəkəriyyə, Benaya və Eliezer Allahın
sandığı önündə kərənay çalırdılar;
Oved-Edom və Yexiya sandığın ya-
nında qapıçı idi.

### *Allahın sandığı Yerusəlimə gətirilir*

*(2Şam. 6:12-22)*

25Davud, İsrail ağsaqqalları və
minbaşılar şadlıq etməklə Rəbbin Əhd
sandığını Oved-Edomun evindən gə-
tirməyə getdilər. 26Rəbbin Əhd san-
dığını daşıyan Levililər yeddi buğa və
yeddi qoç qurban kəsdilər, çünki
Allah onlara kömək edirdi. 27Davud
incə kətandan cübbə geyinmişdi, san-
dığı daşıyan bütün Levililər, ilahiçilər
və ilahiçilərin rəhbəri olan Kenanya
da belə geyinmişdi. Davudun əynində
kətan efod da var idi. 28Bütün İsra-
illilər səs-küylə şeypur, kərənay, sinc
çalaraq çənglərin və liraların yüksək
səsi altında Rəbbin Əhd sandığını
çıxartdılar.

29Rəbbin Əhd sandığı Davudun
şəhərinə gətiriləndə Şaulun qızı Mikal
pəncərədən baxdı, padşah Davudu
tullanıb rəqs edən gördü və ürəyində
ona kinayə etdi.

16 1Allahın sandığını gətirib onun
üçün Davudun qurduğu çadırın
ortasına qoydular. Allahın önündə
yandırma və ünsiyyət qurbanları
təqdim etdilər. 2Davud yandırma və
ünsiyyət qurbanlarını təqdim edib
qurtarandan sonra Rəbbin adı ilə
xalqa xeyir-dua verdi. 3O bütün İs-
raillilərə – kişilərin və qadınların hər
birinə bir kömbə çörək, bir parça ət və
bir üzüm lavaşanası payladı.

4Davud İsrailin Allahı Rəbbi ça-
ğırıb Ona şükür və həmd etmək üçün
Levililərdən xidmət edən bu adamları
Rəbbin sandığının önünə qoydu. 5Baş-
çı Asəf, onun köməkçisi Zəkəriyyə,
çəng və lira çalan Yeiel, Şemiramot,
Yexiel, Mattitya, Eliav, Benaya,
Oved-Edom və Yeiel, sincləri yüksək
səslə çalan Asəf, 6Allahın Əhd sandığı
önündə həmişə kərənaylar çalan
kahinlər Benaya və Yaxaziel. 7O gün
Davud ilk dəfə olaraq Rəbbə şükür
etmək işini Asəflə yoldaşlarına tap-
şırdı.

### *Allaha həsr olunan məzmur*

*(Zəb. 105:1-15; 96:1-13; 106:47-48)*

8«Rəbbə şükür edin, ismini səsləyin,
Əməllərini xalqlar arasında elan
edin!
9Onu ilahilərlə tərənnüm edin,
Bütün xariqələrini bəyan edin!
10Onun müqəddəs adı ilə fəxr edin,
Ey Rəbbi axtaranlar, ürəkləriniz
qoy sevinsin!
11Rəbbi, Onun qüvvətini arayın,
Daim hüzurunu axtarın.
12Etdiyi xariqələri,
Möcüzələri, dilindən çıxan
hökmləri xatırlayın,
13Ey Onun qulu İsrail nəsli,
Ey Yaqub övladları, ey Onun
seçdikləri!

14Allahımız Rəbb Odur,
Hökmü bütün yer üzərindədir.
15Əbədi olaraq – min nəslə qədər
əhdini,
Əmr etdiyi sözü,[1]
16İbrahimlə kəsdiyi əhdini,[2]
İshaqa and içərək verdiyi vədini
unutmaz.

**16:8** *Zəb. 105:1; Yeş. 12:4* **16:15-16** – [1] *Yar. 12:7;* [2] *Yar. 26:3*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 493



17Bunu qayda kimi Yaqub üçün
təsdiq etdi,
Bu əbədi əhdi İsrail üçün etdi,
18Dedi: "Övladlarının payına düşən
mülk kimi
Kənan torpağını sənə verəcəyəm".

19O zaman sayca onlar az idilər,
Azsaylı olaraq ölkədə qərib idilər.
20Ölkədən-ölkəyə,
Məmləkətdən-məmləkətə
köçürdülər.
21Rəbb heç kimi onlara əzab
verməyə qoymadı,
Onlara görə padşahları tənbeh
etdi.
22Dedi: "Məsh elədiklərimə
dəyməyin,
Peyğəmbərlərimə pislik etməyin".

23Ey bütün dünya, Rəbbə ilahi
oxuyun,
Xilaskar olduğunu gündən-günə
müjdələyin.
24Ehtişamını millətlərə elan edin,
Xariqələrini bütün xalqlara bəyan
edin!
25Axı Rəbb əzəmətlidir, bol həmdə
layiqdir,
O bütün allahlardan daha
zəhmlidir.
26Bütün özgə xalqların allahları
bütlərdir,
Lakin göyləri yaradan Rəbdir.
27Ehtişam və əzəmət hüzurunda
olar,
Sevinclə qüdrət Onun yerindədir.

28Ey xalqların tayfaları, Rəbbə
verin –
Ehtişamı, qüdrəti Rəbbə verin,
29Adına layiq ehtişamı Rəbbə verin,
Hüzuruna girib təqdimlər verin.
Müqəddəslik zinəti ilə Rəbbə səcdə
edin.
30Ey bütün dünya, Onun hüzurunda
lərzəyə gəlin!
O, dünyanı sarsılmaz və möhkəm
qurub.
31Göylər sevinsin, yer üzü şad olsun!
Millətlərə belə elan edin:
"Rəbb hökmranlıq edir".
32Dənizin və dənizdəki canlıların səsi
ucalsın,
Çöllər və çöldə yaşayanlar
fərəhlənsin,
33Meşədəki bütün ağaclar mədh
söyləsin
Rəbbin hüzurunda!
O, dünyanın hökmünü vermək
üçün gəlir.

34Rəbbə şükür edin, ona görə ki
yaxşıdır,
Çünki məhəbbəti əbədidir.
35Deyin: "Ey qurtarıcımız Allah,
bizi qurtar,
Bizi millətlərin arasından topla və
azad et.
Müqəddəs isminə şükür edək,
Biz fəxrlə Sənə həmd söyləyək".
36Alqış olsun İsrailin Allahı Rəbbə
Əzəldən sonsuza qədər!»
Bütün xalq «Amin!» söylədi və Rəb-
bə həmd etdi.

### *Rəbbin Əhd sandığının önündə və Giveonda xidmət edənlər*

37Davud orada – Rəbbin Əhd
sandığının önündə bu adamları qoydu:
hər günün işinə görə sandığın önündə
daim xidmət edən Asəf və onun
yoldaşları, 38Oved-Edom və onun
altmış səkkiz nəfər yoldaşı, qapıçılar
Yedutun oğlu Oved-Edom və Xosa.

**16:17-18** *Yar. 28:13* **16:21-22** *Yar. 20:3-7* **16:29-30** *Zəb. 29:2; 96:8-9*
**16:34** *2Saln. 5:13; 7:3; Ezr. 3:11; Zəb. 100:5; 106:1; 107:1; 118:1; 136:1; Yer. 33:11*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 494



39O, Giveonda olan səcdəgahda, Rəbbin məskəni önündə, kahin Sadoqu və onun kahin yoldaşlarını qoydu ki, 40Rəbbin İsrailə əmr etdiyi Qanunda yazılanların hamısına görə daim səhər və axşam Rəbbə yandırma qurbanları üçün düzəldilən qurbangahda Ona yandırma qurbanları versinlər. 41Onlarla birgə Hemanı, Yedutunu və adları çəkilən başqa seçilmiş adamları təyin etdi ki, Rəbbə şükür etsinlər, çünki Onun məhəbbəti əbədidir. 42Heman, Yedutun və həmin adamların əlində Allaha yüksək səslə musiqi çalmaq üçün kərənaylar, sinclər və başqa alətlər var idi. Yedutunun oğulları isə qapıçı oldular. 43Bütün xalq – hər kəs evinə getdi, Davud da öz evinə xeyir-dua vermək üçün geri qayıtdı.

### *Allahın Davuda vədi*

*(2Şam. 7:1-17)*

17 1Davud sarayında yaşayan vaxt peyğəmbər Natana dedi: «Mən sidr ağacından tikilən bir sarayda yaşayıram, Rəbbin Əhd sandığı isə çadır altındadır». 2Natan Davuda dedi: «Ürəyindəki niyyəti həyata keçir, çünki Allah səninlədir».

3Lakin gecə Natana Allahın bu sözü nazil oldu: 4«Get qulum Davuda söylə ki, Rəbb belə deyir: “Yaşamaq üçün Mənə evi sən tikməyəcəksən, 5çünki İsraili çıxartdığım gündən bu günə qədər heç bir evdə yaşamadım, yalnız çadırdan çadıra, məskəndən məskənə gəzdim. 6Bütün İsraillilərlə birgə gəzdiyim yerlərdə xalqımın qayğısına qalmağı buyurduğum İsrail hakimlərindən birinə ‹Niyə Mənə sidr ağacından bir ev tikmədiniz?› deyə bir söz söyləmişəmmi?” 7İndi qulum Davuda söylə ki, Ordular Rəbbi belə deyir: “Mən səni otlaqlarda qoyun otararkən götürüb xalqım İsrailə hökmdar etdim. 8Getdiyin hər yerdə səninlə oldum, qarşından bütün düşmənlərini qırıb atdım. İndi isə adını dünyadakı böyüklərin adı kimi məşhur edəcəyəm. 9Xalqım İsrail üçün bir yer təyin edəcəyəm, o kök atıb bu yerdə yaşayacaq və bir daha sarsılmayacaq. Şər adamlar əvvəllər – xalqım İsraillilərə hakimlər təyin etdiyim günlərdən bəri etdikləri kimi yenə də onu qırıb-çatmayacaq. 10Bütün düşmənlərini əzəcəyəm. Sənə bildirirəm ki, Rəbb sənə bir ev tikəcək. 11Ömrün başa çatıb ataların kimi dünyadan getdiyin zaman yerinə sənin övladını – oğullarından birini çıxaracağam və onun padşahlığını möhkəmləndirəcəyəm. 12O Mənim üçün ev tikəcək və Mən onun taxtını əbədi möhkəm edəcəyəm. 13Mən ona Ata, o isə Mənə oğul olacaq. Lütfümü səndən əvvəl olan adamdan geri aldığım kimi ondan geri almayacağam. 14Onu Öz evimin və padşahlığımın üzərinə əbədi olaraq qoyacağam, onun taxtı əbədi möhkəm qalacaq”». 15Natan Davuda bütün bu sözləri və bütün bu vəhyi nəql etdi.

### *Davudun duası*

*(2Şam. 7:18-29)*

16Padşah Davud içəri keçib Rəbbin önündə diz çökərək dedi: «Ya Rəbb Allah, mən kiməm və nəslim kimdir ki, Sən məni bu yerə çıxartdın? 17Ey

**16:43** *2Şam. 6:19-20* **17:11-12** *Zəb. 132:11; Həv. 2:30* **17:13** *2Şam. 7:14; 2Kor. 6:18; İbr. 1:5;*
**17:13** *Vəhy 21:7*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 495



Allah, Sənin gözündə bu da kiçik
göründü, hələ bu qulunun nəslinin
gələcəyi haqqında xəbər verdin. Mənə
yüksək bir adam kimi baxırsan, ya
Rəbb Allah! 18Bu quluna izzət ver-
diyin üçün Davud Sənə daha nə deyə
bilər? Sən ki bu qulunu tanıyırsan.
19Ya Rəbb, qulundan ötrü və Öz
istəyinə görə bu böyük işlərin hamısını
etdin ki, bütün əzəmətini göstərəsən.
20Ya Rəbb, qulaqlarımızla eşitdikləri-
mizin hamısına görə Sənin kimisi heç
yoxdur və Səndən başqa Allah yox-
dur. 21Yer üzərində xalqın İsrail kimi
bir millət varmı? Ey Allah, Sən onu
Özünə xalq etmək üçün satın almağa
getdin. Sən Misirdən satın aldığın
xalqının önündən millətləri qovaraq
böyük və xariqəli işlərlə Özünə şöhrət
qazandın. 22Əbədi olaraq xalqın İs-
raili Özün üçün xalq olaraq müəyyən
etdin və Sən, ya Rəbb, onların Allahı
oldun.

23İndi isə, ya Rəbb, bu qulun və
onun nəsli haqqında söylədiyin söz
əbədi olaraq yerinə yetsin və dediyinə
əməl et. 24Qoy adın əbədi olaraq qal-
sın və izzətlənsin, "İsrailin Allahı Or-
dular Rəbbi İsraili saxlayan Al-
lahdır" desinlər. Qulun Davudun
nəsli də Sənin önündə möhkəm qal-
sın. 25Çünki, Sən ey Allahım, "sənə ev
tikəcəyəm" deyərək bunu quluna
çatdırdın və buna görə qulun önündə
dua etməyə cəsarət tapdı. 26Ya Rəbb,
Sən Allahsan və indi də quluna bu
yaxşı şeyi vəd etdin. 27Əbədi olaraq
Sənin önündə olsun deyə bu qulunun
nəslinə xeyir-dua vermək Sənə xoş
göründü. Sən, ya Rəbb, ona xeyir-dua
verdiyin üçün o əbədi olaraq xeyir-
dua almışdır».

### *Davudun qələbələri*

*(2Şam. 8:1-18)*

18 1Bundan sonra Davud Filişt-
liləri məğlub edib özünə tabe
etdi və Qatı, onun qəsəbələrini Filişt-
lilərdən aldı. 2O, Moavlıları da məğlub
etdi və Moavlılar Davuda tabe olub
xərac verdilər.

3Sova padşahı Hadadezer Fərat
çayının ətrafındakı yerlərdə hakimiy-
yətini bərpa etməyə gedəndə Davud
Xamatda onu məğlub etdi. 4O, Ha-
dadezerin min döyüş arabasını aldı,
yeddi min süvarisini, iyirmi min
piyada əsgərini əsir etdi və atlardan
yüzə qədərini döyüş arabası üçün
saxlayaraq qalan atların ayaq vətərini
kəsdi. 5Dəməşqdə yaşayan Aramlılar
Sova padşahı Hadadezerə kömək et-
məyə gələndə Davud onlardan iyirmi
iki min nəfəri qırdı. 6Davud Dəməşq
Aramına hərbi dəstələr yerləşdirdi və
Aramlılar ona tabe olub xərac ver-
dilər. Rəbb Davuda getdiyi hər yerdə
zəfər qazandırdı. 7O, Hadadezerin
zabitlərinin gəzdirdiyi qızıl qalxanları
götürüb Yerusəlimə gətirdi. 8Davud
Hadadezerin şəhərləri olan Tivxatdan
və Kundan çoxlu tunc aldı. Sonralar
Süleyman ondan tunc hovuzu, sütun-
ları və tunc qabları düzəltdi.

9Xamat padşahı Tou eşitdi ki,
Davud Sova padşahı Hadadezerin
bütün ordusunu məğlub edib. 10O,
Davudu salamlamaq və Hadadezeri
döyüşdə məğlub etdiyinə görə təbrik
etmək üçün oğlu Hadoramı onun
yanına göndərdi, çünki Hadadezer
Tou ilə həmişə müharibə etmişdi.
Hadoram hər cür qızıl-gümüş və tunc
əşyalar gətirdi. 11Padşah Davud bütün

**18:8** *1Pad. 7:40-47; 2Saln. 4:11-18*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 496



millətlərdən – Edomlulardan, Moavlı-
lardan, Ammonlulardan, Filiştlilərdən
və Amaleqlilərdən alıb gətirdiyi qızıl-
gümüşlə birgə bunları da Rəbbə həsr
etdi.
12Seruya oğlu Avişay Duz vadisin-
də Edomlulardan on səkkiz min nəfəri
qırdı. 13O, Edoma hərbi dəstələr yer-
ləşdirdi və bütün Edomlular Davuda
tabe oldular. Rəbb Davuda getdiyi hər
yerdə zəfər qazandırdı.

### *Davudun əyanları*

14Davud bütün İsrailin padşahı ol-
du. O bütün xalqına ədalət və saleh-
liklə hökmranlıq edirdi.
15Seruya oğlu Yoav ordu başçısı
idi; Axilud oğlu Yehoşafat salnaməçi
idi; 16Axituv oğlu Sadoq və Evyatar
oğlu Avimelek kahin idi; Şavşa mirzə
idi; 17Yehoyada oğlu Benaya Keret-
lilər və Peletlilərin başçısı idi; Davu-
dun oğulları padşahın baş məmurları
idi.

### *Ammonlular və Aramlılar üzərində qələbə*

*(2Şam. 10:1-19)*

19 1Bir müddət sonra Ammonlu-
ların padşahı Naxaş öldü və
yerinə oğlu padşah oldu. 2Davud dedi:
«Naxaşın oğlu Xanuna yaxşılıq edə-
cəyəm, çünki atası mənə yaxşılıq etdi».
Davud qasidlər göndərdi ki, atasına
görə Xanuna başsağlığı versin. Lakin
Davudun adamları Ammon ölkəsinə,
onun yanına gələndə 3Ammonluların
başçıları Xanuna dedilər: «Sən elə
bilirsən ki, Davud bu başsağlığı verən
adamları sənin atana hörməti olduğu
üçün göndərib? Bəlkə onun adamları
bu torpaqdan keçməklə onu yoxlayıb
öyrənmək, sonra da ələ keçirmək üçün
sənin yanına gəliblər». 4Xanun Davu-
dun adamlarını tutub saqqallarını
qırxdıraraq paltarlarını oturacaq ye-
rinə qədər aşağıdan kəsdirdi və onları
geri göndərdi. 5Bu adamlar barədə
Davuda xəbər çatdı. Davud onları
qarşılamaq üçün qasidlər göndərdi,
çünki bu adamlar çox utanırdı.
Padşah dedi: «Saqqalınız çıxana qədər
Yerixoda qalın, sonra qayıdarsınız».
6Xanun və Ammonlular Davudun
yanında nifrət qazandıqlarını görəndə
Aram-Naharayimdən, Aram-Maaka-
dan, Sovadan özlərinə muzdla döyüş
arabaları və atlılar tutmaq üçün min
talant gümüş göndərdilər. 7Özləri üçün
otuz iki min araba, Maaka padşahını
və onun qoşunlarını muzdla tutdular,
onlar da gəlib Medvanın önündə
ordugah qurdular. Ammonlular öz
şəhərlərindən yığılıb döyüşə gəldilər.
8Davud bunu eşidib Yoavla bütün
igidlər ordusunu onların üstünə gön-
dərdi. 9Ammonlular çıxıb şəhərin
girişində, gələn padşahlar isə ayrıca
çöldə döyüş üçün düzüldü.
10Yoav öndən və arxadan düşmən-
lərin ona qarşı düzüldüklərini görəndə
bütün İsrailin seçmə döyüşçülərindən
bəzisini ayırıb Aramlılara qarşı düzdü.
11Xalqın qalan hissəsinə isə qardaşı
Avişayı başçı qoydu və onlar Ammon-
luların qarşısında düzüldü. 12Yoav
dedi: «Əgər Aramlılar məndən güclü
çıxarsa, sən mənə kömək edərsən, əgər
Ammonlular səndən güclü çıxarsa,
mən sənə kömək edərəm. 13Möhkəm
ol. Gəl xalqımız naminə və Allahımı-
zın şəhərləri naminə igidlik göstərək.
Qoy Rəbb gözündə xoş olanı etsin».
14Yoav və yanındakı qoşun vuruşmaq

**18:12** *Zəb. 60 başlıq*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 497



üçün Aramlıların qarşısına yaxınlaşdı.
Aramlılar Yoavın önündən qaçdı.
**15**Ammonlular da Aramlıların qaçdı-
ğını görəndə Yoavın qardaşı Avişayın
qabağından qaçıb şəhərə girdilər.
Sonra Yoav Yerusəlimə gəldi.

**16**Aramlılar İsraillilərin önündə
məğlub olduqlarını görəndə qasidlər
göndərib Fərat çayının o tayındakı
Aramlıları döyüşə çıxartdılar. Onların
başçısı Hadadezerin ordu başçısı Şo-
fak idi. **17**Bunu Davuda xəbər verdilər.
O bütün İsraillilləri toplayıb İordan
çayını keçdi və Aramlıların qarşısına
gəlib qoşununu onlara qarşı düzdü.
Davud öz qoşununu Aramlıların
önünə çıxartdı və Aramlılar onunla
vuruşdu. **18**Aramlılar İsraillilərin qa-
bağından qaçdı. Davud Aramlılardan
yeddi min araba döyüşçüsünü və qırx
min piyadanı qırdı, ordu başçısı
Şofakı da öldürdü. **19**Hadadezerin
adamları İsraillilərin önündə məğlub
olduqlarını görəndə Davudla sülh
bağladılar və ona tabe oldular. Aram-
lılar bir daha Ammonlulara kömək
etmək istəmədi.

### *Ammonluların darmadağın edilməsi*

*(2Şam. 11:1; 12:26-31)*

**20** **1**Bahar gələndə padşahlar
müharibəyə çıxan vaxt Yoav
ordusunu səfərə çıxardı. O, Ammon-
luların ölkəsini viran etdi və gəlib
Rabbanı mühasirəyə aldı. Davud isə
Yerusəlimdə qaldı. Yoav Rabbanı vu-
rub dağıtdı. **2**Davud onların padşahı-
nın başından tacını götürdü. Tac qızıl-
dan olub çəkisi bir talant idi. Onun
üzərində qiymətli daş var idi. Bu tac
Davudun başına qoyuldu. Davud bu
şəhərdən çoxlu qənimət apardı. **3**O,
şəhərdə olan xalqı köçürdü və əllərinə
mişar, dəmir, külüng və balta verib
ağır işlərə qoydu. Davud Ammonlu-
ların bütün şəhərlərində belə edəndən
sonra xalqın hamısı ilə birgə Yerusə-
limə qayıtdı.

### *İsraillilərin Filiştli nəhənglərə qarşı döyüşü*

*(2Şam. 21:15-22)*

**4**Bundan sonra Gezerdə Filiştlilərlə
döyüş oldu. O zaman Xuşalı Sibbekay
Rafa övladlarından[a] Sippayı öldürdü.
Beləcə Filiştlilər tabe oldu. **5**Filişt-
lilərlə daha bir döyüşdə Yair oğlu
Elxanan Qatlı Qolyatın qardaşı Lax-
mini öldürdü. Onun əlindəki nizənin
sapı toxucu dəzgahının əriş ağacı
boyda idi. **6**Qatda bir də döyüş oldu.
Orada Rafa övladlarından digər uca-
boy bir adam var idi. Bu adamın əlləri
və ayaqları altı barmaqlı idi və cəmi
iyirmi dörd barmağı var idi. **7**O, İsrailə
meydan oxudu. Onu Davudun qardaşı
Şimanın oğlu Yonatan öldürdü. **8**Bun-
lar Rafa övladlarından olub Qatda
doğulmuşdu. Onlar Davudun və onun
adamlarının əli ilə qırıldı.

### *Davudun xalqı siyahıya alması*

*(2Şam. 24:1-25)*

**21** **1**Şeytan İsraillilərə qarşı qalxdı
və Davudu İsraillilləri siyahıya
almağa təhrik etdi. **2**Davud Yoava və
xalqın başçılarına dedi: «Gedin, Beer-
Şevadan Dana qədər İsraillilləri siya-
hıya alın və siyahını mənə gətirin ki,
onların sayını bilim». **3**Yoav dedi:
«Rəbb xalqını olduğundan yüz qat
artıq etsin. Ancaq, ağam padşah,
onların hamısı ağamın qulları deyilmi?
Nə üçün ağam bunu istəyir? Nə üçün

---

a **20:4** *Rafa övladları* – nəhəng adamlar.

**20:1** *2Şam. 11:1* **20:5** *1Şam. 17:4-7*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 498



bu, İsrailə cəza gətirsin?» **4**Lakin pad-
şahın sözü Yoava üstün gəldi. Yoav
çıxıb bütün İsraili dolaşdı və sonra
Yerusəlimə gəldi. **5**O, xalqın siyahısını
Davuda verdi. Bütün İsraildə qılınc
çəkən bir milyon yüz min nəfər,
Yəhudada isə qılınc çəkən dörd yüz
yetmiş min nəfər adam var idi. **6**Ancaq
Yoav onların arasında Levililəri və
Binyaminliləri siyahıya almadı, çünki
padşahın sözündən acığı gəlmişdi.

**7**Bu iş Allahın gözündə pis oldu və
O, İsrailə cəza verdi. **8**Davud Allaha
dedi: «Bu işi görməklə böyük günah
etdim. İndi isə, yalvarıram, bu qulu-
nun təqsirindən keç, çünki çox ağıl-
sızlıq etmişəm». **9**Rəbb Davudun
görücüsü Qada dedi: **10**«Get, Davuda
söylə ki, Rəbb belə deyir: "Sənə üç şey
təklif edirəm, özün üçün bunların
birini seç ki, sənə edim"». **11**Qad
Davudun yanına gəlib ona dedi:
«Rəbb belə deyir: "Özün üçün seç: **12**ya
üç il aclıq olacaq ya üç ay düşmənlərin
səni təqib edəcək və onların qılıncı səni
vuracaq ya da üç gün Rəbbin qılıncı
olan vəba ölkənin üzərinə gələcək və
Rəbbin mələyi İsraillilər hər yerdə
qıracaq". İndi qərar ver görək məni
göndərənə nə cavab verim?» **13**Davud
Qada dedi: «Mənim üçün çox çətindir.
İnsan əlinə düşüncə qoy Rəbbin əlinə
düşüm, çünki Onun rəhmi çox böyük-
dür».

**14**Beləcə Rəbb İsrail üzərinə vəba
göndərdi və İsraillilərdən yetmiş min
nəfər həlak oldu. **15**Allah Yerusəlimin
əhalisini həlak etmək üçün bir mələk
göndərdi. Mələk onları həlak edərkən
Rəbb bunu görüb bu bəlaya görə
təəssüfləndi və həlak edən mələyə dedi:
«Bəsdir, əl saxla!» Rəbbin mələyi
Yevuslu Ornanın xırmanının yanında
dayandı. **16**Davud başını qaldırıb Rəb-
bin mələyini gördü. Mələk əlindəki
siyrilmiş qılıncı Yerusəlimin üzərinə
uzadaraq yerlə göyün arasında dayan-
mışdı. Çula bürünən Davud və ağsaq-
qallar üzüstə yerə qapandı. **17**Davud
Allaha dedi: «Xalqı siyahıya almağı
əmr edən mən deyildimmi? Mən günah
etdim və həqiqətən, pis iş gördüm, bəs
bu yazıq xalq nə edib? Ya Rəbb
Allahım, qoy Sənin əlin mənim və ata
nəslimin əleyhinə qalxsın, amma Öz
xalqına vəba göndərmə».

### *Davud Ornanın xırman yerində qurbangah düzəldir*

**18**Rəbbin mələyi Davuda söyləmək
üçün Qada dedi: «Qoy Davud çıxıb
Yevuslu Ornanın xırmanında Rəbbə
bir qurbangah düzəltsin». **19**Rəbbin
adı ilə Qadın söylədiyi sözə görə
Davud çıxdı. **20**Ornan geri dönüb
mələyi gördü. Onunla birgə olan dörd
oğlu gizləndi, Ornan isə yenə də buğda
döyürdü. **21**Davud Ornanın yanına
gələndə Ornan baxıb Davudu gördü,
xırmandan çıxdı və ona yerə qədər
təzim etdi. **22**Davud Ornana dedi: «Bu
xırmanını mənə ver ki, burada Rəbb
üçün qurbangah tikim, onu mənə tam
dəyərinə sat. Beləcə xalqın üzərinə
gələn vəba dayansın». **23**Ornan Davu-
da dedi: «Götür, havayı sənin olsun,
ağam padşah gözündə xoş olanı etsin.
Mən yandırma qurbanı olaraq öküz-
ləri, odun yerinə vəlləri və taxıl təq-
dimi kimi buğdanı verirəm, bunların
hamısını verirəm». **24**Padşah Davud
Ornana dedi: «Yox, mütləq tam dəyə-
rinə satın alacağam, çünki sənin malını
Rəbb üçün götürmərəm, havayı malı
yandırma qurbanı verməröm». **25**Buna
görə də Davud bu yer üçün Ornana

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 499



çəkisi altı yüz şekel qızıl verdi. 26Da-
vud orada Rəbbə bir qurbangah dü-
zəldib yandırma qurbanları və ünsiy-
yət qurbanları təqdim etdi. O, Rəbbi
çağırdı, Rəbb də yandırma qurban-
larının gətirildiyi qurbangaha göydən
od göndərib ona cavab verdi. 27Rəbb
mələyə əmr etdi, o da qılıncını qınına
qoydu.

28Davud Yevuslu Ornanın xırma-
nında Rəbbin ona cavab verdiyini
gördükdə orada qurban kəsdi. 29Mu-
sanın səhrada düzəltdiyi Rəbbin məs-
kəni və yandırma qurbanları üçün
düzəldilən qurbangah o vaxt Giveon-
dakı səcdəgahda idi. 30Ancaq Davud
Allahdan soruşmaq üçün Onun hü-
zuruna gedə bilmədi, çünki Rəbbin
mələyinin qılıncından qorxurdu.

22 1Buna görə də Davud dedi:
«Rəbb Allahın evi burada
olsun, burada İsrail üçün yandırma
qurbanları gətirilən qurbangah da
olsun».

### *Davud məbədin tikilməsinə hazırlıq görür*

2Davud İsrail torpağında olan
qəriblərin yığılmasını əmr etdi və
Allah evinin tikilişinə yonma daşlar
düzəltmək üçün onların arasından
daşyonanlar təyin etdi. 3Davud qapı
taylarının mıxları və rəzələri üçün
çoxlu dəmir hazırladı. Həmçinin çox-
luğuna görə çəkiyə gəlməz tunc hazır-
ladı 4və saysız-hesabsız sidr ağacları
da yığdı. Çünki Sidonlular və Surlular
Davuda çoxlu sidr ağacları gətirmişdi.
5Davud öz-özünə dedi: «Oğlum Süley-
man cavandır, təcrübəsi yoxdur, Rəb-
bə tikiləcək məbəd isə əzəmətli olmalı,
şöhrəti və izzəti bütün ölkələrə yayıl-
malıdır. Buna görə onun üçün hazırlıq
görməliyəm». Beləliklə, Davud ölü-
mündən əvvəl çoxlu hazırlıq işləri
gördü.

### *Davud Süleymana məbəd tikməyi vəsiyyət edir*

6Davud oğlu Süleymanı çağırdı və
İsrailin Allahı Rəbb üçün məbəd tik-
məyi ona vəsiyyət etdi. 7Davud Süley-
mana dedi: «Ey oğlum, mənim ürə-
yimdə Allahım Rəbbin adına məbəd
tikmək istəyi vardı. 8Ancaq mənə
Rəbbin bu sözü nazil oldu: “Sən çoxlu
qan tökdün və böyük müharibələr
etdin. Sən Mənim adıma məbəd tik-
məyəcəksən, çünki önümdə yerə çoxlu
qan tökmüsən. 9Sənin bir oğlun ola-
caq. O, dinc yaşayacaq, onu ətrafın-
dakı bütün düşmənlərindən qoruya-
cağam. Onun adı Süleyman olacaq.
Onun dövründə İsrailə sülh və əmin-
amanlıq verəcəyəm. 10O Mənim adı-
ma məbəd tikəcək. O Mənə oğul
olacaq, Mən də ona ata olacağam.
Onun padşahlıq taxtını İsrail üzərində
əbədi olaraq möhkəmlədəcəyəm”.
11İndi, oğlum, qoy Rəbb sənə yar
olsun, sənin barəndə söylədiyi kimi
Allahın Rəbbin məbədini uğurla tikə-
sən. 12Ancaq Rəbb səni İsrailə hökm
etmək üçün qoyanda sənə müdriklik
və həssaslıq versin ki, Allahın Rəbbin
verdiyi Qanuna əməl edəsən. 13Əgər
İsrail barədə Rəbbin Musaya əmr
etdiyi qaydalara və hökmlərə əməl
etsən, uğur qazanacaqsan. Möhkəm
və cəsarətli ol, qorxma və ruhdan
düşmə. 14Bax böyük cəhdlə Rəbbin
məbədi üçün yüz min talant qızıl, bir
milyon talant gümüş, çox olduğu üçün
çəkiyə gəlməz tunc və dəmir yığdım,

**22:7-10** *2Şam. 7:1-16; 1Saln. 17:1-14* **22:13** *Yeşua 1:6-9*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 500



həmçinin ağaclar və daşlar hazırladım.
Sən də bunların üstünə əlavə et.
15Sənin yanında çoxlu işçilər – daş-
yonanlar, bənnalar, dülgərlər, 16hər
cür qızıl, gümüş, tunc və dəmir işini
bacaran ustalar var. Onların sayı-
hesabı yoxdur. Buyur, işə başla, Rəbb
sənə yar olsun».

17Davud İsrailin bütün başçılarına
oğlu Süleymana kömək etməyi və-
siyyət edib dedi: 18«Allahınız Rəbb
sizinlə deyilmi? O, ölkədə yaşayanları
mənim ixtiyarıma verməklə sizə hər
tərəfdən dinclik vermədimi? Ölkə
Rəbbə və Onun xalqına tabe edilib.
19İndi ürəyinizi və canınızı Allahınız
Rəbbi axtarmağa yönəldin. Rəbb
Allahın Müqəddəs məkanını tikməyə
başlayın ki, Rəbbin Əhd sandığını və
Allahın müqəddəs əşyalarını Rəbbin
adına tikilmiş məbədə gətirəsiniz».

23 1Davud qocalıb yaşa dolanda
oğlu Süleymanı İsrail üzərində
padşah etdi.

### *Levililər və onların vəzifələri*

2Davud İsrailin bütün başçılarını,
kahinləri və Levililəri topladı. 3Otuz
yaşında və bundan yuxarı yaşda olan
Levililər siyahıya alındı. Onlardan
kişilərin sayı otuz səkkiz min nəfər idi.
4Bunlardan iyirmi dörd min nəfəri
Rəbbin məbədində xidmət üçün qo-
yuldu. Altı min məmur və hakim,
5dörd mini isə qapıçı oldu. Dörd min
nəfər Davudun bu məqsədlə düzəltdiyi
musiqi alətləri ilə Rəbbi həmd etmək
üçün qoyuldu. 6Levinin Gerşon, Qo-
hat və Merari nəsillərinə görə Davud
onları bölmələrə ayırdı.

7Gerşonun nəslindən: Ladan və
Şimey. 8Ladanın oğulları: ilk oğlu Ye-
xiel, Zetam və Yoel – üç nəfər.
9Şimeyin oğulları: Şelomit, Xaziel və
Haran – üç nəfər. Bunlar Ladanın
nəsil başçıları idi. 10Şimeyin oğulları:
Yaxat, Ziza, Yeuş və Beria. Bu dördü
Şimeyin oğulları idi. 11Yaxat ilk oğlu,
Ziza isə ikincisi idi. Ancaq Yeuşun və
Berianın oğulları çox deyildi. Onlar
birlikdə bir nəsil kimi siyahıya alındı.

12Qohatın oğulları: Amram, İshar,
Xevron və Uzziel – dörd nəfər.
13Amramın oğulları: Harun və Musa.
Harun ən müqəddəs şeyləri təqdis
etmək üçün təyin olundu. Onun nəsli
əbədi olaraq Rəbbin önündə buxur
yandırmaq, Rəbbə xidmət etmək və
həmişə Onun adı ilə xeyir-dua vermək
üçün təyin olundu. 14Allah adamı
Musaya gəlincə, onun nəsli Levi qə-
biləsi arasında siyahıya alındı. 15Mu-
sanın oğulları: Gerşom və Eliezer.
16Gerşomun ilk oğlu Şevuel. 17Elieze-
rin ilk oğlu Rexavya. Eliezerin başqa
oğlu yox idi, amma Rexavyanın oğul-
ları olduqca çox idi. 18İsharın ilk oğlu
Şelomit. 19Xevronun oğulları: ilk oğlu
Yeriya, ikincisi Amarya, üçüncüsü
Yaxaziel və dördüncüsü Yeqameam.
20Uzzielin oğulları: ilk oğlu Mikeya və
ikincisi İşşiya.

21Merarinin oğulları: Maxli və
Muşi. Maxlinin oğulları: Eleazar və
Qiş. 22Eleazar öləndə onun oğlu yox
idi, ancaq qızları var idi və əmiləri
Qişin oğulları onları arvad aldılar.
23Muşinin oğulları: Maxli, Eder və
Yeremot – üç nəfər. 24Bunlar adları ilə
siyahıya düşən Levililərin ailə başçıla-
rıdır. Rəbbin məbədinin xidmət işini
görən Levililər iyirmi yaşında və bun-
dan yuxarı yaşda idi.

25Davud demişdi: «İsrailin Allahı

**23:1** *1Pad. 1:1-40* **23:13** *Çıx. 28:1*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 501



Rəbb xalqına dinclik vermişdir və əbədi olaraq Yerusəlimdə məskən salacaq. [26]Levililər müqəddəs məskəni və onun bütün xidmət əşyalarını daha daşımayacaq». [27]Buna görə də Davudun son sözlərinə görə iyirmi yaşında və bundan yuxarı yaşda olan Levililər siyahıya alındı. [28]Onların vəzifəsi Rəbbin məbədində Harunun nəslindən olan kahinlərin yanında dayanıb bu xidmət işlərini görmək idi: həyətlərə və otaqlara baxmaq, bütün müqəddəs əşyaları təmizləmək, Allahın evində xidmət etmək, [29]təqdim çörəklərinə, təqdim üçün verilən una, mayasız qoğallara, onların yoğrulmasına və bişməsinə, hər cür ölçü qablarına baxmaq, [30]hər səhər durub Rəbbə şükür və həmd etmək, hər axşam da elə etmək, [31]Şənbə günlərində, Təzə Ay mərasimlərində, bayramlarda əmr edilən qaydalara görə düzgün sayda daim Rəbbin önündə yandırma qurbanları təqdim etmək. [32]Beləcə Levililər Hüzur çadırının, Müqəddəs yerin xidmətlərinə, Rəbbin evinin xidmətlərində qohumları Harun nəslinə xidmət etməyə cavabdeh idilər.

### *Kahinlər və onların xidmət qaydaları*

24 [1]Harun nəslinin bölükləri bunlardır. Harunun oğulları: Nadav, Avihu, Eleazar və İtamar. [2]Ancaq Nadav və Avihu atalarından əvvəl öldü və oğulları da yox idi. Buna görə də Eleazar və İtamar kahin oldu. [3]Davud, Eleazar nəslindən Sadoq və İtamar nəslindən Aximelek onları xidmət işlərinə görə növbələrə ayırdı. [4]Eleazar nəsli arasında İtamar nəslindən daha çox nəsil başçısı tapıldı. Onlar belə ayrıldı: Eleazar nəslindən nəsil başçısı on altı nəfər, İtamar nəslindən nəsil başçısı səkkiz nəfər. [5]Beləcə onlar püşklə eyni qayda ilə ayrıldı, çünki həm Eleazar nəslindən, həm də İtamar nəslindən Müqəddəs yerdə və Allahın önündə durmaq üçün başçılar var idi. [6]Padşahın, rəislərin, kahin Sadoqun, Evyatar oğlu Aximelekin, kahinlərin və Levililərin nəsil başçılarının önündə Levili mirzə Netanel oğlu Şemaya onları qeydə aldı. Bir nəsil Eleazar üçün, o biri İtamar üçün alındı.

[7]Birinci püşk Yehoyarivə, ikincisi Yedayaya, [8]üçüncüsü Xarimə, dördüncüsü Seorimə, [9]beşincisi Malkiyaya, altıncısı Miyaminə, [10]yeddincisi Haqqosa, səkkizincisi Aviyaya, [11]doqquzuncusu Yeşuaya, onuncusu Şekanyaya, [12]on birincisi Elyaşivə, on ikincisi Yaqimə, [13]on üçüncüsü Xuppaya, on dördüncüsü Yeşevaya, [14]on beşincisi Bilqaya, on altıncısı İmmerə, [15]on yeddincisi Xezirə, on səkkizincisi Happissesə, [16]on doqquzuncusu Petahyaya, iyirmincisi Yezekelə, [17]iyirmi birincisi Yakinə, iyirmi ikincisi Qamula, [18]iyirmi üçüncüsü Delayaya, iyirmi dördüncüsü Maazyaya çıxdı. [19]İsrailin Allahı Rəbbin əmr etdiyi kimi babaları Harunun vasitəsilə onlara verilən qaydalarına görə, Rəbbin məbədinə girmək üçün xidmət işinə görə növbələri belə idi.

### *Qalan Levililərin siyahısı*

[20]Levililərin qalan bölmələri bunlardır: Amramın nəslindən Şuvael, Şuvaelin nəslindən Yexdeya. [21]Rexavyanın nəslindən ilk oğlu İşşiya. [22]İsharın nəslindən Şelomot, Şelomotun nəslindən Yaxat. [23]Xevronun

**23:26** *Qanun. 10:8* **23:28-32** *Say. 3:5-9* **24:2** *Lev. 10:1-2* **24:10** *Luka 1:5*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 502



oğulları: ilk oğlu Yeriya, ikincisi
Amarya, üçüncüsü Yaxaziel, dördün-
cüsü Yeqameam. 24 Uzzielin nəslindən
Mikeya, Mikeyanın nəslindən Şamir.
25 Mikeyanın qardaşı İşşiya, İşşiyanın
nəslindən Zəkəriyyə. 26 Merarinin
oğulları: Maxli, Muşi, onun nəslindən
Yaaziya. 27 Merari nəslindən olan
Yaaziyanın oğulları: Şoham, Zakkur
və İvri. 28 Maxlinin nəslindən Eleazar.
Onun oğlu yox idi. 29 Qişin nəslindən
Yeraxmeel. 30 Muşinin oğulları: Maxli,
Eder və Yerimot. Bunlar nəsillərinə
görə Levililərin bölükləridir. 31 Onlar
da qohumları olan Harun nəsli kimi
padşah Davudun, Sadoqun, Axime-
lekin, kahinlərin və Levililərin nəsil
başçılarının önündə püşk atdılar.
Böyük nəsil başçıları da, qohumları
olan kiçik nəsil başçıları da eyni qayda
ilə püşk atdılar.

### *Məbəddə olan musiqiçilər*

25 1 Davud və ordu başçıları,
Asəfin, Hemanın və Yedutu-
nun nəslindən liralarla, çənglərlə və
sinclərlə peyğəmbərlik etsinlər deyə
xidmət üçün ayırdılar. Bu xidmət işini
görənlərin siyahısı budur: 2 Asəfin nəs-
lindən: onun oğulları Zakkur, Yusif,
Netanya, Asarela. Asəfin başçılığı
altında olan oğulları padşahın əmrinə
görə peyğəmbərlik edirdilər. 3 Yedutu-
nun nəslindən: onun oğulları Gedalya,
Seri, Yeşaya, Xaşavya, Mattitya.
Ataları Yedutunun başçılığı altında
olan bu altı nəfər Rəbbə şükür və
həmd edərək lira ilə peyğəmbərlik
edirdi. 4 Hemanın nəslindən: onun
oğulları Buqqiya, Mattanya, Uzziel,
Şevuel, Yerimot, Xananya, Xanani,
Eliata, Giddalti, Romamti-Ezer, Yoş-
beqaşa, Malloti, Hotir və Maxaziot.
5 Bunların hamısı padşahın görücüsü
Hemanın oğulları idi, çünki Hemanı
yüksəltmək barədə Allahın verdiyi
sözə görə Allah ona on dörd oğul və üç
qız vermişdi. 6 Onların hamısı Rəbbin
məbədində atalarının başçılığı altında
Allah evinin xidməti üçün sinclər,
çənglər və liralar çalıb ilahi oxuyurdu.
Asəf, Yedutun və Heman isə padşahın
başçılığı altında idi. 7 Rəbbə ilahi oxu-
maq öyrədilmiş qohumları ilə birgə
bütün bunu bacaranlar iki yüz səksən
səkkiz nəfər idi. 8 Hamısı – böyüyü də,
kiçiyi də, müəllimi də, şagirdi də eyni
qayda ilə vəzifələri üçün püşk atdı.

9 Birinci püşk Asəfin nəslindən olan
Yusifə çıxdı. İkincisi qohumları və
oğulları ilə birgə Gedalyaya çıxdı.
Onlar on iki nəfər idi. 10 Üçüncüsü
oğulları və qohumları ilə birgə Zak-
kura çıxdı. Onlar on iki nəfər idi.
11 Dördüncüsü oğulları və qohumları
ilə birgə İsriyə çıxdı. Onlar on iki nəfər
idi. 12 Beşincisi oğulları və qohumları
ilə birgə Netanyaya çıxdı. Onlar on iki
nəfər idi. 13 Altıncısı oğulları və qo-
humları ilə birgə Buqqiyaya çıxdı.
Onlar on iki nəfər idi. 14 Yeddincisi
oğulları və qohumları ilə birgə Yesa-
relaya çıxdı. Onlar on iki nəfər idi.
15 Səkkizincisi oğulları və qohumları
ilə birgə Yeşayaya çıxdı. Onlar on iki
nəfər idi. 16 Doqquzuncusu oğulları və
qohumları ilə birgə Mattanyaya çıxdı.
Onlar on iki nəfər idi. 17 Onuncusu
oğulları və qohumları ilə birgə Şimeyə
çıxdı. Onlar on iki nəfər idi. 18 On
birincisi oğulları və qohumları ilə
birgə Azarelə çıxdı. Onlar on iki nəfər
idi. 19 On ikincisi oğulları və qohumları
ilə birgə Xaşavyaya çıxdı. Onlar on iki
nəfər idi. 20 On üçüncüsü oğulları və
qohumları ilə birgə Şuvaelə çıxdı.

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 503



Onlar on iki nəfər idi. 21On dördün-
cüsü oğulları və qohumları ilə birgə
Mattityaya çıxdı. Onlar on iki nəfər
idi. 22On beşincisi oğulları və qohum-
ları ilə birgə Yeremota çıxdı. Onlar on
iki nəfər idi. 23On altıncısı oğulları və
qohumları ilə birgə Xananyaya çıxdı.
Onlar on iki nəfər idi. 24On yeddincisi
oğulları və qohumları ilə birgə Yoş-
beqaşaya çıxdı. Onlar on iki nəfər idi.
25On səkkizincisi oğulları və qohum-
ları ilə birgə Xananiyə çıxdı. Onlar on
iki nəfər idi. 26On doqquzuncusu
oğulları və qohumları ilə birgə Mal-
lotiyə çıxdı. Onlar on iki nəfər idi.
27İyirmincisi oğulları və qohumları ilə
birgə Eliataya çıxdı. Onlar on iki nəfər
idi. 28İyirmi beşincisi oğulları və qo-
humları ilə birgə Hotirə çıxdı. Onlar
on iki nəfər idi. 29İyirmi ikincisi
oğulları və qohumları ilə birgə Gid-
daltiyə çıxdı. Onlar on iki nəfər idi.
30İyirmi üçüncüsü oğulları və qohum-
ları ilə birgə Maxaziota çıxdı. Onlar
on iki nəfər idi. 31İyirmi dördüncüsü
oğulları və qohumları ilə birgə Ro-
mamti-Ezerə çıxdı. Onlar on iki nəfər
idi.

### *Məbədin qapıçıları*

**26** 1Qapıçıların bölükləri belədir:
Qorah nəslindən, Asəfin öv-
ladlarından olan Qore oğlu Meşelem-
ya. 2Meşelemyanın oğulları: ilk oğlu
Zəkəriyyə, ikincisi Yediael, üçüncüsü
Zevadya, dördüncüsü Yatniel, 3beşin-
cisi Elam, altıncısı Yehoxanan, yed-
dincisi Elyehoenay. 4Oved-Edomun
oğulları: ilk oğlu Şemaya, ikincisi
Yehozavad, üçüncüsü Yoah, dördün-
cüsü Sakar, beşincisi Netanel, 5altın-
cısı Ammiel, yeddincisi İssakar, sək-
kizincisi Peulletay, çünki Allah Oved-
Edoma xeyir-dua vermişdi. 6Onun
oğlu Şemayanın da oğulları oldu və
onlar nəsil başçıları oldu, çünki igid
adamlar idi. 7Şemayanın oğulları:
Otni, Refael, Oved və Elzavad. Qo-
humları Elihu və Semakya da igid
adamlar idi. 8Bunların hamısı Oved-
Edomun nəslindən idi. Özləri, oğulları
və qohumları xidmət işində bacarıqlı
və igid adamlar idi. Hamısı birlikdə
altmış nəfər idi. Onlar Oved-Edomdan
idi. 9Meşelemyanın oğullarından və
qohumlarından olan igid adamlar on
səkkiz nəfər idi. 10Merari nəslindən
olan Xosanın oğulları: ilk oğlu ol-
madığı halda atasının böyük başçı
qoyduğu Şimri, 11ikincisi Xilqiya,
üçüncüsü Tevalya, dördüncüsü Zə-
kəriyyə. Xosanın bütün oğulları və
qohumları on üç nəfər idi.

12Bu adamların başçılıq etdiyi
qapıçı bölükləri başqa qohumları kimi
Rəbbin məbədində xidmət etmək üçün
vəzifələrinə təyin olundular. 13Böyüyü
də, kiçiyi də ata nəsillərinə görə hər
qapı üçün püşk atdı. 14Şelemya üçün
püşk Şərq qapısına düşdü. Onun oğlu
ağıllı məsləhətçi olan Zəkəriyyə üçün
də püşk atdılar. Onun püşkü Şimal
qapısına düşdü. 15Oved-Edom üçün
püşk Cənub qapısına, oğulları üçün isə
anbar evinə düşdü. 16Şuppim və Xosa
üçün püşk Qərb qapısına və yuxarı
qalxan yolda olan Şalleket qapısına
düşdü. Bunların hamısı növbə ilə be-
ləcə keşik çəkirdi. 17Şərq qapısı üçün
altı Levili, Şimal qapısı üçün gündə
dörd Levili, Cənub qapısı üçün gündə
dörd Levili və hər iki anbar üçün iki
Levili. 18Qərb tərəfdə olan həyət üçün
isə yolda dördü, həyətdə ikisi dururdu.

**26:4-5** *2Şam. 6:11; 1Saln. 13:14; 27:23*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 504



19Bunlar Qorah və Merari nəsillərin-
dən olan qapıçı bölmələridir.

### *Xəzinə nəzarətçiləri və başqa məmurlar*

20Allah evinin xəzinələrinə və təqdis
olunan şeylərin xəzinələrinə nəzarət
edən Levililər – onların qohumları
bunlardır: 21Gerşonlulardan olan La-
danın nəslindən Ladanın nəsil başçısı
Gerşonlu Yexieli, 22Rəbbin məbədinin
xəzinələrinə nəzarət edən Yexielinin
oğulları Zetam və onun qardaşı Yoel.
23Amramın, İsharın, Xevronun və
Uzzielin nəsillərindən 24Musa oğlu
Gerşomun nəslindən olan Şevuel
xəzinələr üzərində baş nəzarətçi idi.
25Gerşomun qardaşı Eliezerin nəsli:
onun oğlu Rexavya, onun oğlu Ye-
şaya, onun oğlu Yoram, onun oğlu
Zikri, onun oğlu Şelomit. 26Şelomit və
onun qohumları bütün təqdis olunan
şeylər xəzinələri üzərində nəzarətçi idi.
Bu şeyləri padşah Davud, minbaşı və
yüzbaşı olan nəsil və ordu başçıları
təqdis etmişdi. 27Müharibələrdə ələ
keçirilən təqdis olunmuş qənimətin bir
hissəsini Rəbbin məbədini təmin
etmək üçün ayırmışdılar. 28Hər kəsin
təqdis etdiyi şeylər – görücü Şamuelin,
Qiş oğlu Şaulun, Ner oğlu Avnerin və
Seruya oğlu Yoavın təqdis etdiyi
şeylərin hamısı Şelomitin və onun
qohumlarının nəzarəti altında idi.

29İshar nəslindən Kenanya və onun
oğulları İsrail üzərində məmur və
hakim olub məbəddən kənardakı
işlərə baxırdı. 30Xevronun nəslindən
igid adamlar olan Xaşavya və onun
qardaşları – min yeddi yüz nəfər
Rəbbə ibadət işi və padşahın xidmət işi
üçün İordan çayının qərb tayında
yaşayan İsraillilər üzərində məmur idi.
31Xevronun nəslindən olan Yeriya
Xevronluların nəsil başçısı idi. Da-
vudun padşahlığının qırxıncı ilində
onların nəsil şəcərələrinə baxıldı və
Gileadın Yazer şəhərində onların ara-
sında igid adamlar tapıldı. 32Yeriya-
nın nəsil başçıları olan qohumları igid
adamlar idi və sayları iki min yeddi
yüz nəfər idi. Padşah Davud Allahın
və padşahın xidmət işi üçün Ruven-
lilər, Qadlılar və Menaşşe qəbiləsinin
yarısı üzərində onları məmur qoydu.

### *Qoşun başçılarının aylıq növbələri*

27 1İlin hər ayında bir bölmə
növbə çəkirdi. Hər bölmədə
iyirmi dörd min nəfər var idi. Bu
bölmələrin bütün işlərində padşaha
xidmət edən İsraillilərin nəsil başçıla-
rının, minbaşıların, yüzbaşıların və
məmurların siyahısı budur: 2birinci ay
üçün birinci bölməyə Zavdiel oğlu
Yaşoveam başçılıq edirdi. Onun
bölməsində iyirmi dörd min nəfər var
idi. 3O, Peres nəslindən idi və birinci
ay üçün bütün ordu başçılarının
böyüyü idi. 4İkinci ayın bölməsinə
Axoahlı Doday başçılıq edirdi. Miqlot
onun köməkçisi idi və onun bölmə-
sində iyirmi dörd min nəfər var idi.
5Üçüncü ay üçün üçüncü qoşun başçısı
kahin Yehoyadanın oğlu Benaya idi.
Onun bölməsində iyirmi dörd min
nəfər var idi. 6«Otuz igid»dən biri və
«otuz igid»in başçısı olan Benaya
budur. Oğlu Ammizavad onun kö-
məkçisi idi. 7Dördüncü ay üçün
dördüncü başçı Yoavın qardaşı Asahel
idi, ondan sonra oğlu Zevadya idi.
Onun bölməsində iyirmi dörd min
nəfər var idi. 8Beşinci ay üçün beşinci
başçı İzrahlı Şamhut idi. Onun böl-
məsində iyirmi dörd min nəfər var idi.

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 505



9Altıncı ay üçün altıncı başçı Teqoalı
İqqeşin oğlu İra idi. Onun bölməsində
iyirmi dörd min nəfər var idi.
10Yeddinci ay üçün yeddinci başçı
Efrayimlilərdən Pelonlu Xeles idi.
Onun bölməsində iyirmi dörd min
nəfər var idi. 11Səkkizinci ay üçün
səkkizinci başçı Zerah nəslindən
Xuşalı Sibbekay idi. Onun bölməsində
iyirmi dörd min nəfər var idi. 12Doq-
quzuncu ay üçün doqquzuncu başçı
Binyaminlilərdən Anatotlu Aviezer
idi. Onun bölməsində iyirmi dörd min
nəfər var idi. 13Onuncu ay üçün onun-
cu başçı Zerah nəslindən Netofalı
Mahray idi. Onun bölməsində iyirmi
dörd min nəfər var idi. 14On birinci ay
üçün on birinci başçı Efrayimlilərdən
Piratonlu Benaya idi. Onun bölmə-
sində iyirmi dörd min nəfər var idi.
15On ikinci ay üçün on ikinci başçı
Otnielin nəslindən Netofalı Xelday idi.
Onun bölməsində iyirmi dörd min
nəfər var idi.

### *İsrail qəbilələri üzərində olan başçılar*

16İsrail qəbilələri üzərində olan
başçılar bunlardır: Ruvenlilərin baş-
çısı Zikri oğlu Eliezer; Şimeonluların
başçısı Maaka oğlu Şefatya; 17Levi-
lilərin başçısı Qemuel oğlu Xaşavya,
Harun nəslinin başçısı Sadoq; 18Yə-
hudalıların başçısı Davudun qardaş-
larından biri Elihu; İssakarlıların baş-
çısı Mikael oğlu Omri; 19Zevulun-
luların başçısı Avdiya oğlu İşmaya;
Naftalililərin başçısı Azriel oğlu Ye-
rimot; 20Efrayimlilərin başçısı Azazya
oğlu Huşə; Menaşşelilərin yarısının
başçısı Pedaya oğlu Yoel; 21Gileadda
olan Menaşşelilərin yarısının başçısı
Zəkəriyyə oğlu İddo; Binyaminlilərin
başçısı Avner oğlu Yaasiel; 22Danlı-
ların başçısı Yeroxam oğlu Azarel.
Bunlar İsrail qəbilələrinin başçılarıdır.

23Davud iyirmi yaşında və bundan
aşağı yaşda olanları hesaba almadı,
çünki Rəbb İsraili göydəki ulduzlar
qədər çoxaldacağını vəd etmişdi.
24Seruya oğlu Yoav siyahıya almağa
başladı, ancaq bunu başa çatdırmadı.
Bu siyahıyaalmadan ötrü Rəbbin qə-
zəbi İsrail üzərinə gəldi və siyahıya-
alma padşah Davudun salnamələr
kitabına daxil olmadı.

### *Padşahın nəzarətçiləri və məsləhətçiləri*

25Padşahın anbarlarına nəzarət
edən Adiel oğlu Azmavet; tarlalarda,
şəhərlərdə, kəndlərdə və qalalarda
olan anbarlara nəzarət edən Uzziya
oğlu Yonatan; 26tarlada çalışan əkin-
çilərin üzərində nəzarətçi Keluv oğlu
Ezri; 27üzüm bağlarına nəzarət edən
Ramalı Şimey; üzüm bağlarındakı
şərab anbarlarına yığılan üzüm məh-
suluna nəzarət edən Şifemli Zavdi;
28yamaclı-düzənlikli bölgədə olan
zeytunluqlar və firon ənciri ağaclarına
nəzarət edən Gederli Baal-Xanan; yağ
anbarlarına nəzarət edən Yoaş; 29Şa-
ron düzənliyində otlayan mal-qaraya
baxan Şaronlu Şitray; dərələrdə olan
mal-qaraya baxan Adlay oğlu Şafat;
30dəvələrə baxan İsmailli Ovil; eş-
şəklərə baxan Meronotlu Yexdeya;
31qoyun-keçiyə baxan Həcərli Yaziz.
Bunların hamısı padşah Davudun
mülklərinə baxan rəislər idi.

32Davudun əmisi Yonatan məslə-
hətçi idi. O çox ağıllı və savadlı idi.
Xakmoni oğlu Yexiel padşah oğulla-
rının tərbiyəçisi idi. 33Axitofel padşa-

**27:23** *Yar. 15:5; 22:17; 26:4* **27:24** *2Şam. 24:1-15; 1Saln. 21:1-14*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 506



hın məsləhətçisi idi. Arklı Xuşay
padşahın həmsöhbəti idi. 34Axitofel-
dən sonra yerinə Benaya oğlu Yeho-
yada və Evyatar oldu. Padşahın ordu
başçısı isə Yoav idi.

### *Məbədin tikilişi barədə Davudun son məsləhətləri*

28 1Davud İsrailin bütün başçı-
larını – qəbilə başçılarını,
padşaha xidmət edən bölmələrin
başçılarını, minbaşıları və yüzbaşıları,
padşahla oğullarının bütün mülkünə
və heyvanlarına baxanların başçıla-
rını, saray xidmətçilərini, sərkərdələri
və bütün igid adamları Yerusəlimə
topladı.
2Padşah Davud ayağa qalxıb dedi:
«Ey qardaşlarım və xalqım, məni
dinləyin! Ürəyimdə Allahımızın kətili
və Rəbbin Əhd sandığı üçün bir
rahatlıq evi tikmək arzusu var idi və
onu tikmək üçün hazırlıq gördüm.
3Ancaq Allah mənə dedi: "Sən Mənim
adıma məbəd tikməyəcəksən, çünki
sən hərb adamısan və qan tökmüsən".
4Lakin İsrailin Allahı Rəbb İsrail üzə-
rində əbədi olaraq padşah olmaq üçün
bütün nəslimdən məni seçdi, çünki
hökmdar olmaq üçün O, Yəhudanı və
Yəhuda qəbiləsindən mənim nəslimi
seçdi. Bütün İsrail üzərində padşah
etmək üçün nəslimin arasında mən
xoşuna gəldim. 5Rəbbin mənə verdiyi
çoxlu oğul arasından da İsrail üzərin-
də Rəbbin padşahlıq taxtında otur-
maq üçün oğlum Süleymanı seçdi.
6Rəbb mənə dedi: "Oğlun Süleyman
da həmin adamdır ki, Mənim məbə-
dimi və həyətlərimi tikəcək, çünki onu
Özümə oğul seçdim və Mən ona Ata
olacağam. 7Əgər bu gün olduğu kimi
əmrlərimə və hökmlərimə əməl et-
məkdə sadiq olsa, onun padşahlığını
əbədi olaraq möhkəmləndirəcəyəm".
8İndi isə bütün İsraillilərin, Rəbbin
camaatının gözü önündə və Allahımız
eşidərkən belə tapşırıram: "Allahınız
Rəbbin bütün əmrlərinə əməl edin,
onları öyrənin ki, bu nemətli torpaqda
qalasınız və sizdən sonra övladlarınıza
onu əbədi miras verəsiniz".
9Sən də, oğlum Süleyman, atanın
Allahını tanı, səmimi qəlbdən və hə-
vəslə Ona qulluq et, çünki Rəbb bütün
ürəkləri sınayır və ağılların bütün
istəklərini bilir. Əgər Onu axtarsan,
sən Onu tapacaqsan. Əgər Onu tərk
etsən, O da səni əbədi olaraq atacaq.
10İndi bax Rəbb səni Müqəddəs mə-
kan olan bir ev tikmək üçün seçmişdir,
sən də möhkəm ol və bu işi gör».
11Davud oğlu Süleymana eyvanın,
onun evlərinin, xəzinələrinin, yuxarı
otaqların, iç otaqların, Kəffarə ye-
rinin, fikrində olan bütün bunların
təsvirini və 12Ruhun vasitəsilə ona
aşkar olmuş bütün bunların təsvirini
verdi: Rəbbin məbədinin həyətləri,
ətrafdakı bütün otaqlar, Allah məbə-
dinin xəzinələri, təqdis olunan şeylərin
xəzinələri, 13kahinlərin və Levililərin
bölükləri, Rəbbin məbədində hər cür
xidmət işi, Rəbbin məbədində olan
bütün xidmət əşyaları, 14hər cür xid-
mət üçün işlədilən bütün qızılın çə-
kisinə görə qızıl əşyalar, hər cür xidmət
üçün işlədilən gümüşün çəkisinə görə
gümüş əşyalar, 15hər çıraqdanın və
onun çıraqlarının çəkisinə görə qızıl
çıraqdanlar və onların qızıl çıraqları,
hər cür xidmət üçün çəkisinə görə
gümüş çıraqdanlar və onların çıraq-
ları, 16təqdis çörəkləri qoyulan masa-

**28:2-7** *2Şam. 7:1-16; 1Saln. 17:1-14*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 507



lar üçün hər masanın çəkisinə görə
qızıl, hər gümüş masa üçün gümüş,
17xalis qızıldan olan çəngəllər, piya-
lələr və dolçalar, hər kasanın çəkisinə
görə qızıl kasalar, hər kasanın çəkisinə
görə gümüş kasalar, 18çəkisinə görə
xalis qızıldan buxur qurbangahı. Da-
vud həm də qanadlarını açıb Əhd
sandığını örtən Rəbbin arabası olan
qızıl keruvların təsvirini verdi. 19Da-
vud dedi: «Bunların hamısının təsviri
bütün təfsilatı ilə yazılı şəkildə Rəbb
tərəfindən mənə aşkar edildi».

20Davud oğlu Süleymana dedi:
«Möhkəm və cəsarətli ol, bu işi gör,
qorxma və ruhdan düşmə, çünki Rəbb
Allah, mənim Allahım səninlədir. O,
Rəbbin məbədinin bütün xidmət işi
sona çatmamış səni atmaz və tərk
etməz. 21Allah məbədinin bütün xid-
məti üçün kahinlərin və Levililərin
bölükləri hazır durub. Sənin yanında
bütün işlər üçün hər cür xidməti
bacaran könüllü adamlar da var.
Rəislər və bütün xalq sənin hər əmrini
gözləyir».

### *Məbədə gətirilən nəzirlər*

29 1Padşah Davud bütün ca-
maata dedi: «Allahın yeganə
seçdiyi oğlum Süleyman cavan və
təcrübəsizdir, bu iş isə böyükdür, çünki
bu bina insan üçün deyil, Rəbb Allah
üçün olacaq. 2Bütün səyimlə Allahı-
mın məbədindən ötrü qızıl şeylər üçün
qızıl, gümüş şeylər üçün gümüş, tunc
şeylər üçün tunc, dəmir şeylər üçün
dəmir, ağac şeylər üçün ağac, damarlı
əqiq daşları və onların sağanaqları,
cilalı və cürbəcür rəngli daşlar, hər cür
qiymətli daşlar və çoxlu mərmər
daşlar hazırlamışam. 3Bundan başqa,
Allahımın məbədini tikməyə həvəsim
naminə müqəddəs məbəd üçün hazır-
ladığım hər şeydən əlavə nə qədər
qızıl-gümüş xəzinəm varsa, onu da
Allahım Rəbbin məbədi üçün verirəm:
4Ofir qızılından üç min talant qızılı,
yeddi min talant xalis gümüşü evlərin
divarını örtmək üçün, 5qızıl şeylər
üçün qızılı, gümüş şeylər üçün gümüşü
ustaların düzəldəcəyi bütün işlər üçün
verirəm. Kim bu gün Rəbbə könüllü
nəzir təqdim etmək istəyir?»

6Nəsil başçıları, İsrail qəbilələrinin
başçıları, minbaşılar, yüzbaşılar və
padşahın işləri üzərində olan rəislər
könüllü gəlib 7Allah məbədinin xid-
məti üçün beş min talant və on min
darik qızıl, on min talant gümüş, on
səkkiz min talant tunc və yüz min
talant dəmir verdilər. 8Kimdə qiymətli
daşlar var idisə, onları Gerşon nəslin-
dən olan Yexielin nəzarəti altında olan
Rəbbin məbədinin xəzinəsinə verirdi.
9Xalq onların könüllü nəzir verməsinə
sevindi, çünki bütün qəlbi ilə Rəbbə
nəzir təqdim etmişdilər. Padşah Da-
vud da çox sevindi.

### *Davudun duası*

10Davud bütün camaatın gözü
önündə Rəbbə alqış edib dedi: «Ey
atamız İsrailin Allahı Rəbb, əzəldən
sonsuza qədər Sənə alqış olsun! 11Ya
Rəbb, əzəmət, qüdrət, calal, zəfər və
şöhrət Sənə məxsusdur, çünki göydə və
yerdə olan hər şey Sənindir. Ya Rəbb,
padşahlıq Sənindir və Hökmdar ola-
raq hər şeydən ucasan. 12Var-dövlətlə
şöhrət Səndən gəlir və Sən hər şeyə
hökmranlıq edirsən. Hər kəsi yüksəlt-
mək və gücləndirmək üçün qüdrət və
güc Sənin əlindədir. 13İndi, ey Alla-

**29:1-2** *1Saln. 22:5* **29:11** *Mat. 6:13*

13_1Chr Lat:Azeri Bible Latin 20.04.2009 14:14 Page 508



hımız, biz Sənə şükür edirik və izzətli
adına həmd edirik.
14Ancaq mən kiməm və xalqım
nədir ki, bu cür könüllü nəzirlər verə
bilək? Çünki hər şey Səndəndir və
əlindən aldığımızı Sənə verdik. 15Biz
bütün atalarımız kimi Sənin önündə
bir qərib və qonağıq. Günlərimiz yer
üzündə kölgə kimidir və heç nəyə
ümidimiz yoxdur. 16Ya Rəbb Alla-
hımız, Sənin müqəddəs adına məbəd
tikmək üçün hazırladığımız bütün bu
var-dövlət Sənin əlinlə verilib, bun-
ların hamısı Sənindir. 17Bilirəm ki, ey
Allahım, Sən ürəyi sınayırsan və
düzlüyü sevirsən. Mən bütün bu
şeyləri ürəyimin düzlüyü ilə könüllü
olaraq təqdim etdim, indi də burada
olan xalqının Sənə könüllü nəzir
verdiyini sevinclə gördüm. 18Ya Rəbb,
atalarımız İbrahimin, İshaqın və
İsrailin Allahı! Xalqının ürəyindəki
istəklərində bunu əbədi olaraq qo-
ruyub saxla və onların ürəyini Özünə
tərəf yönəlt. 19Oğlum Süleymana
sadiq bir ürək ver ki, Sənin əmrlərinə,
göstərişlərinə və qanunlarına əməl
etsin, bütün bu işləri görsün, tikin-
tisinə hazırlıq gördüyüm bu binanı
tiksin».
20Davud bütün camaata dedi: «İndi
Allahınız Rəbbə həmd edin». Bütün
camaat atalarının Allahı Rəbbə həmd
etdi. Onlar əyilib Rəbbə səcdə, pad-
şaha isə təzim etdilər.

### *Süleymanın taxta çıxması*

21Ertəsi gün Rəbbə qurbanlar
kəsdilər və Rəbbə yandırma qurbanı
olaraq min baş buğa, min baş qoç,
min baş quzu, onların içmə təqdimlə-
rini və bütün İsrail üçün çoxlu qur-
banlar təqdim etdilər. 22O gün onlar
böyük sevinclə Rəbbin önündə yeyib-
içdilər. Sonra ikinci dəfə Davud oğlu
Süleymanı padşah etdilər. Rəbb üçün
onu hökmdar və Sadoqu kahin olaraq
məsh etdilər. 23Süleyman atası Davu-
dun yerinə padşah olaraq Rəbbin tax-
tında oturdu və uğur qazandı. Bütün
İsraillilər ona itaət etdi. 24Bütün rəis-
lər, igid adamlar, həm də Davudun
bütün oğulları padşah Süleymana tabe
oldu. 25Rəbb Süleymanı bütün İsrail-
lilərin gözündə çox ucaltdı və özündən
əvvəl İsraildə heç bir padşahın malik
olmadığı padşahlıq əzəmətini ona
verdi.

### *Davudun ölümü*

26Beləliklə, Yessey oğlu Davud
bütün İsrail üzərində padşahlıq etdi.
27Onun İsrail üzərində padşahlıq
etdiyi müddət qırx il idi; yeddi il
Xevronda və otuz üç il Yerusəlimdə
padşahlıq etdi. 28O, uzun ömür sürüb
sərvət və şöhrətdən doymuş halda xoş
bir qocalıq çağında öldü və yerinə oğlu
Süleyman padşah oldu. 29Padşah Da-
vudun əvvəldən axıra qədər bütün
işləri görücü Şamuelin kitabında,
peyğəmbər Natanın kitabında və
görücü Qadın kitabında yazılmışdır.
30Bu kitablarda həm Davudun pad-
şahlığı və qüdrəti, həm də onun, İs-
railin və bütün dünya padşahlıqlarının
başına gələn əhvalatlar barədə yazıl-
mışdır.

**29:23** *1Pad. 2:12* **29:27** *2Şam. 5:4-5; 1Saln. 3:4*